www.musavat.com

YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 8 oktyabr 2015-ci il Cümə axşamı № 222 (6250) Qiymәti 40 qəpik

Xəbər

## Avropa Şurası Azərbaycanla əməkdaşlığı dayandırdı

yazısı səh.2-də

Gündəm

### Türkiyə "Rusiya, yoxsa Qərb" seçiminə sürüklənir



İki ölkə münasibətləri "qırmızı xətt"ə yaxınlaşır; Türkiyə ordusu döyüş hazırlığı vəziyyətinə gətirildi; Əhməd Davudoğlu: "Suriya münaqişəsi türk-rus münaqişəsinə keçməməlidir"...

yazısı səh.8-də

### Bakı Avtovağzal Kompleksi təhlükədə: sürüşmə oldu, çatlar yarandı

yazısı səh.4-də

### DSK-larda ələmə prosesi

yazısı səh.5-də

### AMİP-də istefa "zəlzələsi"

yazısı səh.6-da

### Hökumət vəd verdi: 2016-cı ildə 22 min müəllimin maaşı artırılacaq

yazısı səh.7-də

### Goranboyda şagird məktəbə qumbara ilə gəldi

yazısı səh.14-də

### Türkiyə Qarsa ordu göndərdi - hərbi əməliyyatlar başlayır

yazısı səh.8-də

### Şərurun keçmiş icra başçısı biznesmeni küçənin ortasında döyüb

yazısı səh.12-də

### ABŞ qəzetinin Qarabağa dair yazısı nə vəd edir...

yazısı səh.10-da

### Bakıda evlərdən oğurluq edən cinayətkar dəstə tutuldu

yazısı səh.14-də

### Fermerlər niyə torpaqdan xeyir götürə bilmir...

yazısı səh.12-də

### Ölkədə qan donduran cinayətlərin səbəbləri...

yazısı səh.15-də

### Azərbaycanlı biznesmen polislərlə atışdı

yazısı səh.14-də

## MTRŞ-nin sərt qərarlarının pərdəarxası

# HAKİMİYYƏT TELEKANALLARI BÖHRAN DÖVRÜNƏ HAZIRLAYIR - ANS DİRƏNİR...

Telekanalların sponsor dairələri, hansı oliqarxlara yaxınlığı ciddi nəzarətə alınır, hətta hansı şirkətlərin mallarının, kimlərə məxsus restoran və klinikaların reklam edilməsi də xüsusi araşdırılır; çünki istənilən ölkədə iqtisadi böhran daxildən və xaricdən "xaos və inqilablar" üçün pul axınına şərait yaradır; "qazdan ayıq" ANS rəhbərliyi verilişlərin qapadılması ilə bağlı qərarın arxasında Nuşirəvan Məhərrəmlinin dayanmadığının fərqindədir....




yazısı səh.5-də

## Ziya Məmmədov barədə son və səhih məlumat - rəsmi

Nəqliyyat Nazirliyinin sözçüsü Namiq Həsənov "Yeni Müsavat"a danışdı: "Nazir ölkədə deyil"; "Neçə nazirliyin səlahiyyətləri "Asan xidmət"ə verildi, bundan heç yazan yoxdur"

yazısı səh.4-də



*Qüdrət Həsənquliyev:*

### "Azərbaycan Qarabağın azadlığı qarşılığında Avrasiya İttifaqına girə bilər"

yazısı səh.13-də



*Vüqar Bayramov:*

### "Bütövlükdə qlobal olaraq 2016-cı ilin iqtisadi şəkli heç də ürəkaçan deyil"

yazısı səh.6-da



### Zakir Fərəcovun 1 ayı...

yazısı səh.3-də

YENİ MÜSAVAT
N 222 (6250) 8 oktyabr 2015

# 2007-ci ildə Şuşaya səfər etmiş iş adamı deputatlığa namizəd oldu

**2007-ci ildə işğal altındakı Dağlıq Qarabağ bölgəsinə və Ermənistana səfər etmiş iş adamı İlhami Fətəliyev 124 saylı Şuşa-Ağdam-Xocalı-Xocavənd seçki dairəsindən deputatlığa namizəd olub.**



İlhami Fətəliyev

Novator.az bildirir ki, "Şəms" firmasının təsisçisi və direktoru olan İlhami Fətəliyev 1949-cu ildə Şuşada doğulub. İndiki Azərbaycan Texniki Universitetinin tikinti fakültəsini bitirib. Uzun illər Şuşada tarixi memarlıq abidələrinin bərpası ilə məşğul olan idarəyə rəhbərlik edib. Azərbaycanın əməkdar mühəndisidir.

2007-ci il iyunun 28-də İlhami Fətəliyev Xankəndi-Yerevan-Bakı marşrutu ilə sülhməramlı missiya həyata keçirən nümayəndə heyətinin tərkibində işğal olunmuş Dağlıq Qarabağ bölgəsinə, o cümlədən doğulduğu Şuşa şəhərinə baş çəkib.

İlhami Fətəliyevin 1 noyabr seçkisində 8 rəqibi var. 124 saylı Şuşa-Ağdam-Xocalı-Xocavənd seçki dairəsindən hakim partiyanın namizədi indiki deputat Elman Məmmədovdur.



# Neft bahalaşır, Rusiya rublu möhkəmlənir

**Rusiya rublunun məzənnəsində xarici valyutaya nisbətdə sürətlə artım müşahidə olunur. APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, bu gün rublun rəsmi məzənnəsi avroya nisbətdə 2,48 rubl bahalaşıb. Nəticədə 1 avro 70,46 rubla bərabər olub.**

ABŞ dolları da rubla nisbətdə 2,39 rubl ucuzlaşıb. Belə ki, Mərkəzi Bankın məzənnəsində 1 ABŞ dolları 62,7 rubla enib. Moskva birjasında isə 1 ABŞ dolları 61,80 rubla, 1 avro isə 69,80 rubla dəyişdirilib.

Qeyd edək ki, Rusiya milli valyutasının bahalaşmasına dünya bazarında neftin qiymətinin kəskin artması səbəb olub. Dünəndən etibarən neftin qiyməti 5%-ə qədər artıb.

Hazırda dünya bazarında Brent markalı neftin 1 barelinin qiyməti 52,74 dollardır.

# Rusiya Xəzərdən İŞİD-ə zərbələr endirib

**Rusiya hərbi gəmiləri Xəzər dənizindən Suriya ərazisinə raket zərbələri endirib. TASS-ın verdiyi məlumata görə, belə bir bəyanatla Rusiya müdafiə naziri Sergey Şoyqu çıxış edib. O bildirib ki, zərbələr "İslam Dövləti" terror qruplaşmasının mövqelərinə endirilib.**

Suriyadakı terrorçuların mövqeləri qanadlı raketlər vasitəsilə vurulub. 1500 kilometr məsafədə yerləşən hədəflər dəqiqliklə vurulub. Ümumilikdə İŞİD-in mövqelərinə 26 raket atılıb.

Əməliyyatda Rusiya Hərbi-Dəniz Qüvvələrinin Xəzər donanmasının 4 gəmisi iştirak edib.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;

# Avropa Şurası Azərbaycanla əməkdaşlığı dayandırdı

**Avropa Şurası (AŞ) Azərbaycanda insan haqlarına dair birgə işçi qrupundan çıxdığını bəyan edib. "Turan" agentliyi xəbər verir ki, bu bəyanatla AŞ baş katibinin mətbuat katibi çıxış edib. Bəyanatda deyilir:**




"Avropa Şurasının baş katibi Torbörn Yaqland bu gün - oktyabrın 7-də AŞ Nazirlər Kabinetini Azərbaycanda insan haqlarına dair birgə işçi qrupundakı iştirakına son qoyması barədə məlumatlandırıb. AŞ-nin nümayəndəsi 2014-cü ilin oktyabrından bəri qarşısına Azərbaycan vətəndaş cəmiyyəti ilə hökumət arasında dialoqun bərpa olunmasını məqsəd qoyan Bakı görüşlərində iştirak edib. Lakin bu təşəbbüslərə baxmayaraq ölkədə hüquq müdafiəçiləri ilə bağlı ümumi vəziyyət dramatik şəkildə pisləşib. Həbs edilən hüquq müdafiəçilərinin sayı artıb. Avropa Şurası isə onların saxlanma şəraitinin qeyri-məqbul olmasına dair narahatlıq doğuran məlumatlar alır. AŞ baş katibi bütün bunlarla əlaqədar Azərbaycan prezidenti İlham Əliyevi də öz qərarı barədə məlumatlandırıb".

# Rövnəq Abdullayev: "SOCAR-ın gələcəkdə də likvidliklə bağlı problemi gözlənilmir"

**Dünya enerji bazarında qiymətlərin düşməsi Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) həyata keçirdiyi böyük layihələrə təsir etməyib. "Report" xəbər verir ki, bunu SOCAR prezidenti Rövnəq Abdullayev İtaliya mətbuatına müsahibəsində bildirib.**

R.Abdullayev qeyd edib ki, gələcəkdə də şirkətin likvidliklə bağlı problemi gözlənilmir. SOCAR prezidenti bu yaxınlarda Azərbaycan Mərkəzi Bankı tərəfindən təxminən 2 mlrd. dollara yaxın maliyyələşmə həyata keçirildiyini bildirib.

R.Abdullayev müsahibəsində Azərbaycanın "Şahdəniz" yatağının ikinci mərhələsinin işlənilməsi çərçivəsində hasil olunan təbii qazın Avropaya nəqlini nəzərdə tutan Cənub Qaz Dəhlizi layihəsindən də danışaraq qeyd edib ki, ilkin mərhələdə 16 mlrd. kubmetr həcmdə müəyyənləşdirilən ixrac sonradan 30 mlrd. kubmetrə çatdırıla bilər.

Türkmənistan və İran qazının bu layihəyə cəlb edilməsi məsələsinə gəlincə isə SOCAR başçısı bununla bağlı hələ yenilik olmadığını bildirib.

O, müsahibəsində həmçinin gələcəkdə Hindistan və Pakistana da enerji ixracının mümkünlüyündən danışıb.

R.Abdullayev "Qazprom" şirkəti ilə bu yaxınlarda əldə edilən razılaşmadan da danışaraq qeyd edib ki, "swop" rejimi əsasında "Qazprom" şirkətinin nəql etdiyi qaz SOCAR-ın qaz anbarlarına vurulacaq və SOCAR Rusiyanın cənub hissəsinə qaz nəql edəcək: "Bundan başqa, "Qazprom" Azərbaycanda bəzi istehlakçılara aşağı qiymətlə qaz satır".

**Bundan başqa, Dövlət Neft Şirkətinin rəhbəri qeyd edib ki, SOCAR-ın və Azərbaycanın məqsədi bu cür dəyişikliklə qaz bazarında strateji mərkəz olmaqdır:** "Buna görə də qaz anbarları sahəsində imkanlarımızı genişləndiririk və bu da bizim bu sahədə müqavilələrimizin artmasına kömək edəcək".



# Məhkumun qətlinin yeganə şahidinin müəmmalı ölümü

**Məhkumların Müalicə Müəssisəsində saxlanılan məhkum Yadigar Nuriyev qəfil və müəmmalı şəkildə dünyasını dəyişib. Y.Nuriyev ötən il dekabrın 22-də saxlanıldığı 14 saylı cəzaçəkmə müəssisəsində vəhşicəsinə döyülərək öldürülən məhkum Elşad Babayevin işi üzrə yeganə şahid idi. Daha doğrusu, gördüklərini deyən və geri çəkilməyən yeganə məhkum-şahid!**

Redaksiyamızda daxil olan məlumata görə, Y.Nuriyev saxlanıldığı Məhkumların Müalicə Müəssisəsində müəmmalı şəkildə dünyasını dəyişib. Onun ölümünün səbəbi kimi həddindən artıq qəbul olunan dərman preparatlarından zəhərlənmə göstərilib. Məlumatı redaksiymıza verən mənbə məhkumda həddən artıq dərmanın olmasına şübhə etdiyini söyləyib. Y.Nuriyevə dərmanları ötürən, onun müəmmalı ölümünə "kömək edən" olubmu? Qaynağımız bu suala "hər şey göz qabağındadır" deyə cavab verib...

Yada salaq ki, bu ilin avqustunda redaksiyamızla əlaqə saxlayan Yadigar Nuriyev Elşad Babayevin ölümünə yol açan vəhşicəsinə döyülməsi səhnəsi haqda gördüklərini deməkdən çəkinmədiyini, istintaqa dediklərini açıq şəkildə ictimaiyyətə çatdırmaq istədiyini söyləmişdi. Fikirlərinin həyatına təhlükə yarada biləcəyini nəzərə alıb adı çəkilmədən çap edə biləcəyini söyləmişdik. Lakin məhkumun israrından sonra onun fikirlərini həqiqətin üzə çıxması ümidi ilə çap etmişdik. İstintaqın gəldiyi nəticəni - cinayət tərkibi olmadan işin xitam olunması qərarının, yumşaq desək, əsassızlığını ortaya qoyan ifadəsinin dərcindən ay yarım sonra Y.Nuriyevin müəmmalı ölümü çox şübhəlidir. Hətta onun qəfil dünyasını dəyişməsini "öldürülə bilməsi" kimi də qiymətləndirmək olar.

Yadigar Nuriyevin fikirləri "Yeni Müsavat"ın 26 avqust 2015-ci il tarixli sayında "Öldürülən məhkumun işindəki ilginc ifadə üzə çıxdı" başlığı, "Məhkum Yadigar Nuriyev: "Mən içəri girəndə təpik, dubinka... daha nə ilə vurmurdular onu" yarımbaşlığı altında dərc olunmuşdu.

Qeyd edək ki, ötən il dekabrın 22-də Penitensiar Xidmətin 14 saylı cəzaçəkmə müəssisəsində məhkum Elşad Babayev dünyasını dəyişib. Ölümündən sonra onun meyiti Qaradağ Rayon Məhkəmə Tibb Ekspertizasına aparılıb. Bacısı S.Babayeva orada qardaşının meyitinin fotolarını çəkib və ictimailəşdirib. İş üzrə araşdırma aparmalı olan istintaq orqanına də həmin fotoları təqdim edib. Amma gözlənildiyinin əksinə olaraq məhkumun ölümü ilə bağlı Qaradağ Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 309.1-ci - vəzifə səlahiyyətlərini aşma maddəsi ilə cinayət işi başlanıb. Sonradan isə cinayət tərkibi olmadığından işə xitam verilib...

❑ E.MƏMMƏDƏLİYEV

# Azərbaycanda saxlanılan nurçular məhkəmə zalında həbs edilib

**Yasamal Rayon Məhkəməsində Azərbaycanda saxlanılan nurçuların cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.**

APA-nın məlumatına görə, məhkəmənin hökmü ilə təqsirləndirilən şəxslərdən Eldəniz Hacıyev, İsmayıl Məmmədov, onun qardaşı Zəkəriyyə Məmmədov, Şahin Həsənovun hər biri 5 il, Rəvan Fərzəliyev isə 2 il müddətinə azadlıqdan məhrum edilib.

Onların hər biri məhkəmə zalında həbs edilib. Prosesdə təqsirləndirilən şəxslərin vəkilləri iştirak etməyib.

Qeyd edək ki, ötən prosesdə çıxış edən dövlət ittihamçısı təqsirləndirilən şəxslərin məhkəmə zalında həbs olunmalarını və 2 ildən 6 ilədək azadlıqdan məhrum edilmələrini istəyib.

Hüquq-mühafizə orqanları 2013-cü ilin aprel ayında paytaxtın Xıdır Mustafayev küçəsində yerləşən mənzillərin birində axtarış aparıb. Axtarış zamanı evdə toplantı keçirən "nurçu" təriqətinin 41 üzvü saxlanılıb. Onların toplaşdığı mənzildən qanunla qadağan olunmuş dini ədəbiyyat, "nurçu" təriqətini təbliğ edən audio və videomateriallar müsadirə olunub.

Saxlanılan şəxslərin bir hissəsindən izahat alınıb və sərbəst buraxılıb.

Səbayel Rayon Məhkəməsinin qərarı ilə Eldəniz Hacıyev, İsmayıl Məmmədov və Rəvan Fərzəliyevin barəsində həbs-qətimkan tədbiri seçilib. Sonradan onların barəsində seçilmiş həbs-qətimkan tədbiri ev dustaqlığı ilə əvəz olunub.

Onlar Cinayət Məcəlləsinin 168.2-ci (dini ayinlərin icrası adı altında vətəndaşların hüquqlarına qəsd etmə) maddəsi ilə təqsirləndirilirlər.

# Jirinovskidən yeni torpaq iddiası

**Rusiya Dövlət Dumasının deputatı, Liberal Demokrat Partiyasının sədri Vladimir Jirinovski yeni torpaq iddiası ilə çıxış edib.**

Novator.az xəbər verir ki, Jirinovski iddiasını Rusiyanın ilyarım qabaq Ukraynaya hücum çəkərək işğal etdiyi Krım bölgəsində səsləndirib.

O, "Artek" düşərgəsində keçirilən gənclər forumunda deyib ki, çar imperiyası dövründə Rusiyaya məxsus olmuş bütün torpaqlar, o cümlədən Polşa və Finlandiya Rusiyaya qaytarılmalıdır: "Çar devrildikdən sonra Polşa qanunsuz olaraq Rusiyadan ayrıldı, Finlandiyaya isə sovet hökumətinin qərarı ilə müstəqillik verildi. Sovet hökumətinin belə qərar qəbul etməyə ixtiyarı yox idi".

Rusiyalı deputat hesab edir ki, rus xalqı parçalanıb və milyonlarla rusu yaşadığı yerlərdə yad dildə danışmağa məcbur edirlər.

YENİ MÜSAVAT
N 222 (6250) 8 oktyabr 2015

# Zakir Fərəcovun 1 ayı - Sumqayıt yenidən qurulur

## Şəhər sakinləri deyir ki, yeni icra başçısı sumqayıtlıdır, ona görə də şəhərdə ciddi və keyfiyyətli işlər görəcək

**Prezident İlham Əliyevin 2 sentyabr 2015-ci il tarixli sərəncamı ilə Sumqayıt şəhərinin icra başçısı vəzifəsinə Zakir Fərəcov təyin olundu. Ötən bir ay ərzində şəhərdə hansı dəyişikliklərin olmasını, sakinlərin fikir və problemlərini öyrənmək üçün musavat.com-un əməkdaşı Sumqayıtda olub.**




Sumqayıt 1949-cu ildən respublika tabeli şəhər statusunu alıb və ölkənin böyüklüyünə görə sayca üçüncü şəhəridir. *(Bakı və Gəncədən sonra red.)* Ancaq üçüncü şəhərdə sovet dövründə çoxsaylı zavodlar fəaliyyət göstərdiyi üçün ekoloji mühit heç də yaxşı olmayıb. Ona görə də ahıl yaşına çatmış əksər insanlar, Sumqayıt dedikdə, indi də nəfəs almağın çətin olduğu bir yeri təsəvvür edirlər. Lakin şəhərdə gəzintimiz zamanı bunun əksini müşahidə etdik.

Sumqayıtın simvolu vaxtilə şəhərin girişində 15 ədəd üst-üstə spiral şəklində qoyulmuş daş və onların üzərində göyərçin qanadları olan abidə olub. 15 ədəd daş şəhərin tikintisində bütün 15 sovet respublikasının iştirakının, spiral şəkilli olması onun sonsuz şəhər olmasının, göyərçin isə sülhün rəmzi kimi bu simvolda öz əksini tapıb. Lakin sonradan abidə alüminiumdan yenidən ucaldılarkən 15 daş prinsipinə əməl olunmayıb. Bu abidə hazırda da Sumqayıtın girişindədir.







Sumqayıta həmin abidənin qarşısındakı girişdən daxil olarkən gördük ki, şəhərə giriş istiqamətində yolun sağında olan ağaclar kütləvi şəkildə kəsilir. Bunun səbəbi isə şəhərin yeni icra başçısının yolların genişləndirilməsi ilə bağlı verdiyi göstərişin olduğu bildirildi. Belə ki, Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov göstəriş verib ki, şəhərin əsas girişindən "Göyərçin" abidəsinə kimi olan avtomobil yolu 5 metr sağ və sol istiqamətlərə doğru genişləndirilsin. Ərazidə çalışanların sözlərinə görə, ağacların kəsilməsi ilə bərabər həmin yola düşən obyektlər də söküləcək və ərazidə park salınacaq.

Sumqayıtda olarkən söhbət etdiyimiz şəhər sakinləri və xüsusilə də sürücülər girişdə, əsas yolun genişləndirilməsini müsbət addım kimi dəyərləndirdilər. Sürücülər bildirirlər ki, yolun yaxınlığında Sumqayıt şəhər avtovağzalı yerləşdiyi üçün burada avtomobillərin hərəkət sıxlığı müşahidə olunur. Ona görə də icra başçısının verdiyi qərar yerindədir.

Şəhərin mərkəzində isə vəziyyət ilk baxışdan xeyli pozitiv görünür. Sumqayıt Bakı ilə müqayisədə səs-küysüz şəhərdir. Şəhərin parklarında əsasən yaşlı nəslin nümayəndələrinə rast gəlmək olur. Parklarda onların dincəlməsi üçün hər cür şərait yaradılıb. Sakinlər bildirirlər ki, Sumqayıtda bir çox parklarda xüsusi "Şahmat" lövhəsi yaradılıb. Bu da daha çox yaşlı nəslin nümayəndələrinin diqqətini cəlb edir. **Sakin Əbdül Həsənovla söhbətimiz zamanı bildirdi ki, şəhərlə bağlı hər hansı ciddi iradları yoxdur:** "Yağış yağan zaman Bakının küçələrində su dizdən olur. Hər dəfə yağışdan sonra televiziya kanalları vasitəsilə biz bunun şahidi oluruq. Ancaq Sumqayıtda hələ indiyə qədər belə bir halın şahidi olmamışıq. Sumqayıtda məhəlləarası yollar da təmir edilir. Parklarda abadlıq işləri aparılır. Biz də bundan çox şad oluruq. Yeni icra başçımız Zakir Fərəcovun da ötən həftə gənclərlə görüşü olub. Orada mənim nəvəm də iştirak edib. Nəvəm deyir ki, icra başçısı bildirib ki, şəhərin bütün yollarına, o cümlədən məhəllədaxili yollara asfalt örtüyü döşənəcək. Yəni göründüyü kimi, Sumqayıtda bu işlər davam etdirilir. Bundan da ancaq şad ola bilərik".

### Şəhərin problemləri

Sakinlər şəhərdə yerləşən "Şərq" bazarının arxasındakı yollardan şikayətləndilər. Onların sözlərinə görə, yağış yağdığı zaman bu yoldan çuxurlara yığılan sular səbəbindən keçmək olmur. Həmin əraziyə yollanıb biz də mövcud vəziyyətlə tanış olduq. Doğrudan da yolun təmirə ehtiyacının olduğunu gördük.

**30 ildir Sumqayıtda yaşadığını söyləyən Qafar Hüseynov isə aşağıdakıları söylədi:**

"Sumqayıtda əsas problem evlərin zirzəmilərindəki kanalizasiya sularıdır. Ən böyük problemimiz budur. Əksər binaların altında bu mənzərəyə rast gəlmək olur. Eyni zamanda təhsil də bir zamanlar Sumqayıtın fəxri sayılırdı. Hətta mən çalışdığım Bakı Dövlət Universitetində Sumqayıt uşaqları öz təhsil səviyyələrinə görə hər kəsdən fərqlənirdilər. İndi isə göstərici xeyli aşağı düşüb. İnanıram ki, yeni başçı bu məsələyə ciddi yanaşacaq. Onun ötən ay keçirdiyi müşavirədə təhsilə önəm verdiyinin şahidi oldum. Şəhərimizdə marşrutlar isə bir ayrı problemdir. Burada demək olar ki, bütün avtobuslar dayanacaqdan kənarda, hətta beş metrdən bir saxlayaraq sərnişin götürürlər. Bununla yanaşı, Sumqayıt Xəzər dənizinin sahilində yerləşdiyi halda, bu üstünlükdən yararlanılmır. Hətta dəniz sahili çox bərbad vəziyyətdədir".

### Zakir Fərəcovun Sumqayıtla bağlı planları

**Onu da qeyd edək ki, Sumqayıt şəhər icra başçısı Zakir Fərəcov 3 oktyabr tarixində gənclərlə görüşü zamanı qarşıdakı planları barəsində aşağıdakıları söyləyib:**

"Şəhərdə Cəfər Cabbarlı Klubunun qarşısında olan iki mərtəbəli binalar sökülüb yerində çoxmərtəbəli binalar tikiləcək. Azərbaycan prospekti yüksək səviyyədə tam şəkildə düzəldiləcək. Dəniz kənarında batan gəmi istiqamətindən Coratın çıxışına kimi gözəl bir bulvar salınacaq. Bununla yanaşı, Sumqayıtda əzəmətli Heydər Əliyev Mərkəzi tikiləcək. Şəhərin bütün yollarına, o cümlədən məhəllədaxili yollara asfalt örtüyü döşənəcək. Bağçaların dam örtüyü yeniləcək və istilik sistemi ilə tam şəkildə təchiz ediləcək. Neqativ hallara yol verən, işləməyən, vətəndaşları incidən bağça və məktəb rəhbərləri ilə bağlı ciddi tədbirlər görüləcək".

İcra başçısı bunu da xüsusi vurğulayıb ki, Sumqayıtda sumqayıtlılar işləyəcək. Əsas vəzifələrdə Sumqayıt əhalisinə üstünlük veriləcək, əsasən də gənclər üstünlük təşkil edəcək.

**Söhbət etdiyimiz sakinlər bir məqamı xüsusi vurğuladılar ki, Zakir Fərəcov sumqayıtlıdır:** "O, gənc yaşlarından bu şəhərdə yaşayıb, uzun illər Sumqayıtda rəhbər vəzifələrdə işləyib. Buna görə inanırıq ki, o, öz doğma şəhəri üçün ciddi işlər görəcək".

❑ **Əli RAİS**

# İmza verənin həbs edildiyi ölkədə seçki



**Xalid KAZIMLI**

**Builki seçki kampaniyasını yaxından izləyə bilmədik, gendən-genə tamaşaya durduq. Bunun səbəbləri barədə çox danışmaq olar, əsas səbəb isə birdir: 2015 seçkisi maraqsızdır - sözün hər mənasında.**

Nə seçənimiz var, nə seçilənimiz. Siyasi baxımdan 3-5 yaxın adam namizəd kimi qeydə alınıb, onların da yetərli qədər səs toplasalar belə, mandat almaq şansları sıfırla alt-üst durumdadır.

Bununla belə, istər-istəməz redaksiyaya seçki kampaniyasının gedişinə dair xəbərlər gəlir, çap edirik.

Vəziyyət bütün seçki dönəmlərində olduğu kimidir, hətta daha betərdir.

Yenə də namizədləri çeşidləyirlər, "yad", "yaxın", "ziyansız", "təhlükəli", "arzuolunmaz" kimi qrafalara salır, ya qeydə alırlar, ya da almırlar.

Yenə də "qeydə alınması məsləhət olmayan" namizədləri qapı arxasında qoyur, bütün sənədləri düz olsa da, təqdim etdikləri imzalara heç bir irad tutulması mümkün olmasa da, məsələyə sırf "keçi suyu bulandırdı" məntiqiylə yanaşırlar.

Yenə də istənilməyən namizədin tərəfdarı olan şəxslərə qarşı cəza tədbirləri görülür - birini işdən çıxarır, o birini hədələyir, digərinə inzibati həbs cəzası verir, cürbəcür təzyiq göstərirlər.

Dəyişən bir şey yoxdur. Hər dəfə seçki illərində təkrar-təkrar baxdığımız filmə yenidən baxırıq. Bu filmin bütün epizodlarını, replikalarını əzbərləmişik, ritorikasına bələdik.

Ancaq ölkə boyunca demək olar ki, eyni cür işləyən DSK-ların içində biri var ki, o DSK öz fəaliyyətində spektrin bütün rənglərindən istifadə edib - haqqı qızıl-qırmızı danıb, qara böhtana, ağ yalana əl atıb, cığallığının üstü açılanda gömgöy göyərib, cinayət törətdiyi üzünə deyiləndə qorxusundan saralıb, hakimiyyətdən dəstək görəndə şikayətçilərin üzünə bozarıb və s.

Bütün bunlar 79 saylı İmişli seçki dairəsində baş verib.

Sabiq İH başçısı, keçmiş deputat, siyasi fəaliyyətinə və parlaq avtobioqrafiyasına görə rayon camaatı arasında böyük nüfuzu olan İltizam Əkbərli qanunun tələblərinə uyğun olaraq bütün sənədlərini DSK-ya təqdim etsə də, seçicilərdən topladığı hər bir imzanın dürüstlüyünü əlavə sənədlə təsdiqlətmiş olsa da, DSK yerli icra hakimiyyətinin başçısı Vilyam Hacıyevin təzyiqi ilə onun namizədliyini qeydə almayıb.

Bu azmış, kimi indi ona imza verən və imzasının doğruluğunu DSK-ya gələrək təsdiqləyən şəxslərin cəzalandırılması kampaniyasına start verilib.

Belə seçki olarmı? Bu, seçkidirmi? Ümumiyyətlə, seçki adlanan kampaniya bu cür keçiriləcəksə, başqa cür mümkün deyilsə, onu keçirmək nəyə lazımdır?

Belə seçkidənsə bəzi Şərq ölkələrində olduğu kimi birdəfəlik seçkidən imtina etmək, parlamenti ali saraydan verilən təyinatla, məhdud bir dairənin seçimiylə formalaşdırmaq daha yaxşı ola bilər.

Hazırda onsuz da elədir. Ancaq bu, qeyri-rəsmi xarakter daşıyır. Bu, rəsmiləşərsə, mandat almaq, parlament üzvü olmaq ehtirası ilə meydana atılanlar, ictimai-siyasi durumu gərginləşdirənlər, ortalığı qarışdıranlar olmaz. Hamı bilər ki, deputat olmaq hər kəsin xörəyi deyil.

İH başçısı olmaq məsələsində dava salan yoxdur. Hamı bilir ki, bu məsələ Prezident Administrasiyasında həll olunur. Prinsipcə, deputatlıq postunun taleyi də PA-da həll olunur, amma bir çox insanlar hər dəfə seçki ilində həyəcanlanır, elə bilirlər ki, belədə havayı mandat var.

Bizim ölkəmizin başlıca problemlərindən biri azad, qanuni, şəffaf, dürüst, demokratik seçkilərin keçirilməməsi deyil. Hələ bir az da geriyə getmək lazımdır. Bizim ölkədə insanların seçib-seçilmək hüququ yoxdur. Bizdə parlament hələ seçkili orqan deyil. Nə vaxtsa parlament gerçəkdən də seçkili orqan olsa, bu, bütün siyasi qüvvələr tərəfindən bu cür tanınsa və vətəndaşlara seçib-seçilmək hüququ verilsə, o zaman seçki kampaniyasındakı əyintilərdən, pozuntulardan, qüsurlardan danışmaq olar.

İndilikdə yalnız onu demək olar ki, biz sadəcə seçki məzhəkəsinin tamaşaçılarıyıq.

Nə vaxtsa bu ölkədə dürüst bir seçki olacaqsa, o zaman namizəd irəli sürmək, seçicidən səs istəmək, təbliğat kampaniyası aparmaq kimi məsələlər aktual olacaq.

İmza verənin həbs edildiyi ölkədə seçkidən danışmaq absurddur.

YENİ MÜSAVAT
N 222 (6250) 8 oktyabr 2015

## MTRŞ-nin sərt qərarlarının pərdəarxası



# Hakimiyyət telekanalları böhran dövrünə hazırlayır - ANS-in direnişinin səbəbi nədir?

Telekanalların sponsor dairələri, hansı oliqarxlara yaxınlığı ciddi nəzarətə alınır, hətta hansı şirkətlərin mallarının, kimlərə məxsus restoran və klinikaların reklam edilməsi də xüsusi araşdırılır; çünki istənilən ölkədə iqtisadi böhran daxildən və xaricdən "xaos və inqilablar" üçün pul axınına şərait yaradır; "qazdan ayıq" ANS rəhbərliyi verilişlərin qapadılması ilə bağlı qərarın arxasında Nuşirəvan Məhərrəmlinin dayanmadığının fərqindədir...

**Neçə gündür ki, Milli Televiziya və Radio Şurasının (MTRŞ) ANS və ATV-də bir neçə tok-şou verilişlərini qapatması cəmiyyətdə ciddi müzakirə mövzusuna çevrilib. İqtidarın siyasi mərkəzinə yaxın olan ATV telekanalının rəhbərliyi baş verən proseslərin əsl mahiyyətindən xəbərdarmış kimi səbirli mövqe nümayiş etdirsə də, ANS rəhbərliyi də sanki bundan sonra gələ biləcək "dalğa"ya qarşı direniş göstərməkdədir.**

Çünki elə "qazdan ayıq" ANS rəhbərliyi də MTRŞ-nin verilişlərin qapadılması ilə bağlı qərarının arxasında personasına çox qıcıqla yanaşdıqları Nuşirəvan Məhərrəmlinin dayanmadığının fərqindədirlər. Çünki 2006-cı ildə də ANS-in efir antenalarını qəfil möhürləyən faktiki MTRŞ olsa da, qərar daha yüksək dairədən verilmişdi. Ona görə də hələ ki müqavimət göstərirlər və bəlkə də "suların durulmasını" gözləmək üçün vaxt qazanmaq niyyətindədirlər.

**Nuşirəvan Məhərrəmlinin APA-ya son müsahibəsində də məhz ANS rəhbərliyini hədəf alması da bu adamlara antipatiya kimi izah etmək çətindir.** "Bizim nə Mirşahin tipli adamlarla, nə də Vahid Mustafayev tipli adamlarla problemimiz var" deyən MTRŞ rəhbərinin "digər kanallardan fərqli olaraq 90-cı illərin ab-havası ilə yaşayırlar" deməsi diqqət çəkir. Məlumdur ki, Azərbaycan iqtidarı "90-cı illəri xaos və özbaşınalıq illəri" kimi qəbul edir və aparılan rəsmi siyasətdə bu, həmişə özünü göstərir. "Sanki onların etdikləri hər şey doğrudur. Heç kim onlara bir söz deyə bilməz", deyən MTRŞ sədrinin "dünənə qədər etdiyin işə görə sağ ol. Amma bu gün gördüyün işə görə cavab ver", söyləməsi də diqqət çəkir.

**N.Məhərrəmli deyib ki, ANS Azərbaycan efirinə ilk dəfə pornoqrafik film gətirən, ilk ən aşağı səviyyəli yumoristik verilişlər verən, efirində ən ədəbsiz ifadələr işlədilən, cinsi azlıqların həyat tərzini adi bir iş kimi göstərən bir kanaldır. O, MTRŞ sədrinin səlahiyyətlərini aşmaqda ən çox ittiham edən ANŞ rəhbərliyinə üstüörtülü mesajlar göndərib:** "MTRŞ Azərbaycan efirində baş verən bütün məsələlərə birbaşa müdaxilə etmək səlahiyyətində olan orqandır. Lazım gələcəksə biz o tip verilişlərdən xilas olacağıq. Hətta yeri gələrsə, bütövlükdə televiziya kanallarından xilas olacağıq. Azərbaycanda qoy 10 televiziya kanalı olmasın, 6 və ya 7 televiziya kanalı olsun. Amma televiziya kanallarında Azərbaycanı təmsil edən gözəl verilişlər olsun". MTRŞ rəhbərini ilk dəfədir ki, telekanalların bağlana biləcəyi barədə bu qədər açıq danışmağa məcbur edən səbəb yəqin ki, "əsəblərə toxunan" iki-üç tok-şou verilişi ola bilməz. Çünki bu verilişlər indi ortaya çıxmayıb, hətta saçlarını o verilişlərdə ağardan ekspertlər də var. Bəs dəyişən nədir və xüsusən ANS niyə bu qədər hədəfə gəlib ki, N.Məhərrəmli hətta hansı proqramın hansı saatda yayımlanacağına qarışacaqlarını da deyir.

Hakimiyyətin telekanallardan narazılığı indi ortaya çıxmayıb, hətta Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev bu barədə silsilə məqalələr çıxış edib. Amma bu tənqidlər tez unudulub və telekanallar bayağı verilişləri, tok-şouların sayını nəinki azaltmayıblar, əksinə, daha artırıblar. Çünki bayağı verilişlər bağlanırsa, gərək onun yerini başqa bir proqram tutsun. Müxalifətin tam olaraq efirə buraxılmaması, cəmiyyəti daha çox düşündürən sosial-iqtisadi mövzulara senzura qoyulması telekanalları bu kimi ağladan-güldürən şoulara daha çox yer ayırmağa məcbur edir. Yəni telekanallardakı indiki acınacaqlı duruma görə həm də hakimiyyət günahkardır. Telekanallara adi bir tənqid nəfəsliyi belə verilmədiyi halda, ondan cəmiyyətin inkişafı üçün xeyir verəcəyini ummaq da absurddur. Amma hakimiyyət ideoloqları bir-iki ağladan verilişə görə boşuna bu qədər narahat olmazdılar da...

Məlumata görə, hakimiyyət əsasən telekanalların bir əldə cəmləşməsinə nail olmaq istəyir. Yəni ilk növbədə hansı telekanalın arxasında kimin dayandığı konkretləşdirilir. Çünki adını çəkmək istəmədiyimiz telekanallar var ki, konkret olaraq kimə (kimlərə) bağlı olduğu dəqiq deyil. Bu yaxınlarda məşhur bir xanımın Bakıya gəlişinə səbəblərdən birinin də bu kimi sənədləşmə məsələləri ilə əlaqəli olduğu deyilir. Telekanalların sponsor dairələri, hansı oliqarxlara yaxınlığı da ciddi nəzarətə alınır, öyrənilir. Telekanallarda hansı oliqarxa bağlı şirkətlərin malların, onlara məxsus restoran və klinikaların reklam edilməsi də xüsusi araşdırılır. İqtidar telekanalların maliyyə mənbələrini tam nəzarətə almaqla "kimin hansı musiqini sifariş etdiyini" bilmək niyyətindədir. İddialara görə, iqtidar artıq ən yüksək səviyyədə etiraf edilən böhran dövrünə hazırlaşması səbəbindən telekanallara nəzarəti gücləndirir. Çünki istənilən ölkədə iqtisadi böhran daxildən və xaricdən, iqtidarın təbirincə desək, "xaos və inqilablar" üçün pul axınına şərait yaradır. İndilikdə verilişlərdəki "göz yaşları"nın arxa plana keçirilməsi zəruridir.

Bu iddialar ANS-in niyə MTRŞ-yə etiraz etməsinin səbəblərinin də üzə çıxarır. ANS özəl telekampaniya kimi heç vaxt kimlərəsə "hesab-kitab" verməyə öyrəncəli deyillər. Üstəlik, bu telekanalı Mirşahin və Mustafayevlər öz şəxsi mülkiləri hesab edirlər. Gərək ki, 20 ilik tarixlərində də genəl olaraq nə hakimiyyətə, nə müxalifətə, nə birmənalı olaraq hansısa oliqarxa bağlı deyillər. ANS-in maliyyə mənbələri də bir bağlı boğça, şirkət rəhbərlərinin özəl kassasıdır. Əlbəttə ki, hökumətə vergilərini də verirlər, lazımi xidmətlərini də göstərirlər. Amma belə görünür ki, hökumət daha bu cür oyun qaydalarını qəbul etmir. Etiraz edənlərə isə "bağlayın gedin" xəbərdarlığı edir...

❑ **"Yeni Müsavat"**

# DSK-larda ələmə prosesi

## Deputatlığa namizədlərin sayı sabah bəlli olacaq



**Deputatlığa namizədliyini irəli sürmüş və sənədlərini, imzaları təqdim etmiş şəxslərin qeydiyyatı ilə bağlı müddət sabah başa çatır. Tanınmış siyasi fiqurlardan Müsavatın Divan üzvü, sabiq deputat İkram İsrafilin namizədliyi 115 saylı Şəki kənd ikinci seçki dairəsindən qeydə alınıb. İkram İsrafilin verdiyi məlumata görə, DSK-ya 547 imza təhvil verib. Bütün imzaların doğru olduğu DSK-da təsdiqlənib. İmzatoplama kampaniyasında heç bir problemlə üzləşməyib.**

96 saylı Goranboy-Naftalan seçki dairəsindən Müsavatın namizədi Yusif Namazoğlunun, 49 saylı Mingəçevir seçki dairəsindən isə Müsavatın namizədi Nurəddin Rüstəmlinin namizədliyi dünən qeydə alınıb.

125 saylı Zəngilan-Qubadlı seçki dairəsindən namizədliyi qeydə alınmayan tarixçi-alim Nəsiman Yaqublu isə seçki kampaniyasında üzləşdiyi qanunsuzluqlarla bağlı prezident İlham Əliyevə yazılı müraciət ünvanlayıb. N.Yaqublu seçkilərdə qanunsuzluqlarla üzləşdiyini, xüsusən də ona imza toplamış, imza vermiş insanların incidildiyini yazıb və prezidentdən həmin insanların hüquqlarını qorumağı xahiş edib.

Müsavat başqanının müavini Elman Fəttahın namizədliyi isə 46 saylı Şirvan seçki dairəsindən qeydiyyata alınıb.

79 saylı İmişli seçki dairəsində deputatlığa namizədliyi qeydə alınmayan sabiq deputat İltizam Əkbərlinin isə iki yaxın adamı polis şöbəsinə aparılıb. Bu barədə musavat.com-a İ.Əkbərli özü məlumat verib. Sabiq deputatın sözlərinə görə, onun imzatoplama kampaniyasında fəallıq göstərən Sübhan Abiyev və Mədət Qurbanov rayon polis şöbəsinə aparılıblar və onlara qarşı DSK-nin işinə mane olmaqla bağlı ittiham irəli sürülüb. DSK sədri Sabit Yaqubovun şikayəti əsasında onlara qarşı inzibati protokol tərtib edilib və iş məhkəməyə göndərilib.

**İ.Əkbərli bildirir ki, əslində hər iki şəxs DSK-nın işinə heç bir müdaxilə etməyiblər:** "Oktyabrın 5-də polis mayoru İdris Məmmədov topladığım imzaların saxta olduğunu elan edəndə Sübhan Abiyev imzaların sahibini - həyat yoldaşını və anasını DSK-ya gətirdi və onlar imzaların özlərinə məxsus olduğunu təsdiqlədilər və dedilər ki, imzamızı bu şəxsə vermişik. Ancaq bundan sonra İ.Məmmədov mübahisəyə etməyə başladı, S.Abiyev isə dedi ki, bu qədər də olmaz. Mədət Qurbanov da ailə üzvlərinin mənə imza verdiyini təsdiqlədi. Onların DSK-nın işinə müdaxiləsi bundan ibarət olub. Yəni bu adamlar sadəcə, DSK sədrinin və polis zabitinin saxta imzalarla bağlı şübhələrinin dağılmasına yardımçı olublar. İndi isə məhz onları cəzalandırırlar. Bu, İmişlidə baş verən seçki rüsvayçılığının davamıdır".

Müsavat Gənclər Təşkilatının sabiq sədri, "AĞ blok" seçki blokunun rəhbəri Tural Abbaslının namizədliyi isə dünən 21 saylı Nəsimi seçki dairəsindən rəsmən qeydə alınıb.

"AĞ blok"un 60 saylı Salyan seçki dairəsindən namizədi Kərim Ağarzanın namizədliyi isə DSK tərəfindən qeydə alınmayıb.

12 saylı Qaradağ-Binəqədi-Yasamal seçki dairəsindən isə dünən REAL Hərəkatının icra katibi Natiq Cəfərlinin namizədliyi qeydə alınıb.

Hərbi ekspert Üzeyir Cəfərovun namizədliyi isə dünən 33 saylı Xətai birinci seçki dairəsində qeydə alınıb.

Azərbaycan Kommunist Partiyasının sədri Rauf Qurbanov isə parlamentdə Şəmkirlə Daşkəsəni təmsil etmək niyyətindədir. 100 saylı Şəmkir-Daşkəsən seçki dairəsi Rauf Qurbanovu deputatlığa namizəd kimi qeydə alıb. Kommunistlərdən ümumilikdə 7 namizədin qeydə alındığı bildirilir.

MSK-nın dünən keçirilən iclasında Gələcək Azərbaycan Partiyasının (GAP) sədri Ağasif Şakiroğlunun 8 saylı DSK-nın onun namizədliyini qeydə almamaqla bağlı şikayətinə baxılıb. A.Şakiroğlunun namizədliyinin qeydə alınmaması qərarı qüvvədə saxlanıb.

MSK sədrinin müavini Natiq Məmmədov isə bir neçə şəxsə imza vermiş seçicilərin imzalarını sonradan geri götürməsinə münasibət bildirib. APA-ya açıqlamasında N.Məmmədov deyib ki, bir çox hallarda seçkilərdə iştirak edən subyektlər bu iştirakın üsul və qaydaları ilə bağlı məsələlərdə ya məlumatlı olmurlar, ya da məsələlərə münasibətdə fərqli mövqedən çıxış edirlər, qanunvericiliyin tələblərinə bir o qədər də fikir vermirlər, bəlkə də anlamırlar. Onun fikrincə, seçicilərin verdikləri imzaları geri götürməsi seçilmək istəyən şəxsin təqsiri ucbatından da olmaya bilər.

**N.Məmmədovun sözlərinə görə, bəlli olanda ki, imzatoplama mərhələsində vətəndaşların iradəsindən sui-istifadə hallarına yol verilib, problemlər ortaya çıxır:** "15 il əvvələ baxsaq, görərik ki, doğrudan da pozuntuların sayı və çeşidi fərqli olub. İndi bu cür məsələlər ətrafında müzakirə aparırıq. Bu da bizim seçki prosesinin pozitiv tərəfdir ki, biz çox nadir, çox az pozuntulardan danışırıq. MSK-ya daxil olan müraciətlər də əvvəlki illərdə müqayisədə əhəmiyyətli dərəcədə azalıb".

❑ **E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 222 (6250) 8 oktyabr 2015



# Prezidentin gələn illə bağlı proqnozlarının detalları...

## Vüqar Bayramov: "Bütövlükdə qlobal olaraq 2016-cı ilin iqtisadi şəkli heç də ürəkaçan deyil"

**Bir neçə gün əvvəl dövlət başçısı rayon səfərlərinin birində 2016-cı ilin asan olmayacağını vurğulayıb. Çıxışının sonunda o, qarşıdan gələn il üçün olan proqnozlar barədə də danışıb.**

"Əlbəttə, biz gələcəyə baxırıq. 2016-cı il də iqtisadiyyat üçün asan il olmayacaq. Biz bunu bilirik və bilməliyik. Ancaq mən gələn il də ölkəmizin uğurlu inkişafı üçün heç bir problem görmürəm. Bütün sosial proqramlar icra ediləcək, iqtisadi inkişaf təmin olunacaq. Azərbaycana xarici və daxili investisiyaların qoyuluşu təmin ediləcək. Ölkəmizdə təhlükəsizlik, sabitlik tam şəkildə qorunacaq",- deyə dövlət başçısı qeyd edib. Ekspertlər dövlət başçısının çıxışını gələn illə bağlı vəziyyətin ciddi olacağının anonsu kimi dəyərləndirirlər. Bildirilir ki, büdcədə azalmalar, neftin dünya bazarında qiymətinin kəskin düşməsi, ikinci devalvasiya təhlükəsi, üstəlik, dövlət rəsmilərinin, hətta dövlət başçısının növbəti illə bağlı səsləndirdikləri fikirlər gələn illə bağlı qayğıları, nigarançılığı artırır.

**Ekspert Vüqar Bayramov** dövlət başçısının qısa açıqlamasını şərh edərkən bildirib ki, 2016-cı il, öncədən gözləndiyi kimi, region və Azərbaycan üçün ağır il olacaq: "Nəzərə alaq ki, Dünya Bankı da, Beynəlxalq Valyuta Fondu da 2016-cı il üçün olan proqnozlarına yenidən baxıb və həmin proqnozların azaldılması ilə bağlı qərar qəbul edib. Bütövlükdə qlobal olaraq 2016-cı ilin iqtisadi şəkli heç də ürəkaçan deyil. 2016-cı ildə 21 regionda cəmi 0,3 faiz iqtisadi artım proqnozlaşdırılır. Bu, ondan xəbər verir ki, region ölkələri üçün 2016-cı il cəlbedici olmayacaq. Beynəlxalq Valyuta Fondunun dünya iqtisadiyyatı ilə bağlı proqnozları nikbin deyil, proqnozlar yenidən baxılıb, incələnib və dəyişdirilib. 2016-cı il üçün dünya üzrə 3,3 faiz artım proqnozlaşdırılıb. Azərbaycan da praktik olaraq regionda və dünyada baş verənlər kontekstində 2016-cı il üçün çətinliyi gözə almalıdır. Azərbaycan iqtisadiyyatına xüsusən neftin dünya bazarında qiymətinin aşağı düşməsi təsir göstərir. 2016-cı ildə bu, Azərbaycanın xarici ticarət balansına təsir göstərəcək. Ölkəyə daxil olan neft pulları azalacaq ki, bu da daxil olan valyutanın həcminin azalması deməkdir. Bu baxımdan sözsüz ki, asan il olmayacaq. Amma mən 2016-cı ildə Azərbaycanda ciddi çətinliklərin də olacağını proqnozlaşdırmıram. Çünki praktik olaraq 2016-cı ildə dövlətin əsas hədəfi sosial siyasətində sosial xərclərin yerinə yetirilməsi ilə bağlı olacaq. Dövlət büdcəsindən sosial ayırmalara 5,9 milyard manat vəsait nəzərdə tutulub. Həmin vəsaitin də 3,5 milyardı birbaşa əməkhaqlarının verilməsinə, 1,9 milyardı təqaüdlərin və sosial yardımların ödənməsi üçün nəzərdə tutulub. 2016-cı ildə hökumətin hədəfi sosial ayırmaları vaxtında və nəzərdə tutulan həcmdə yerinə yetirməkdir. Azərbaycan çalışacaq ki, qənaət etsin. Qənaət etməklə, büdcədə infrastrukturla, kapital, digər istiqamətdə vəsaitlərə qənaət etməklə dövlət rezervlərinin həcmini qoruyub saxlasın. Bu baxımdan 2016-cı il ölkə daha çox qənaət prinsipi ilə işləyəcək. Neftin ucuzlaşması dövlət gəlirlərinin formalaşmasına mənfi təsir göstərəcək. Ancaq neftin qiyməti artarsa, xərcləmələrdə də artım müşahidə ediləcək. Ona görə qlobal olaraq kifayət qədər çətin il olacaq. Amma buna rəğmən, ciddi iqtisadi və sosial çətinliklər proqnozlaşdırılmır".

❑ RÖYA

**AMİP sədri Yusif Bağırzadə oktyabrın 7-də partiyanın sədri vəzifəsindən və üzvlükdən istefa verib. İstefasına səbəb kimi səhhətində problemlərin olduğunu deyib. Maraqlıdır ki, istefa verdiyini APA-ya açıqlama ilə ictimaiyyətə çatdıran Y.Bağırzadənin telefonuna həmin andan zəng çatmır. AMİP-in rəhbərliyi də onunla əlaqə yarada bilmədiyini bildirir.**

# AMİP-də istefa "zəlzələsi"

## Partiya sədri Yusif Bağırzadə qəfil istefa verdi və namizədlikdən də imtina etdi; Etibar Məmmədov da məsələyə münasibət bildirdi

**Partiyanın baş katibi Arzuxan Əlizadə "Yeni Müsavat"a açıqlamasında qeyd edib ki, Yusif Bağırzadənin istefası qəfil olub:** "Yusif bəyin istefa verdiyi barədə xəbəri mediadan oxuduq və təəccübləndik. Bizim üçün çox gözlənilməz oldu. Yusif bəy oktyabrın 6-da partiyanın qərargahında olub, gün ərzində rəhbərliyə daxil olan şəxslərlə müzakirələr keçirib. Lakin heç birimizə istefa verəcəyi barədə heç nə deməyib. Onunla partiyanın üzvləri, strukturları arasında heç vaxt heç bir problem olmayıb. Təxminən 5 il idi sədr idi, hər kəs tərəfindən sədr kimi qəbul edilib. Onunla əlaqə qurmağa çalışırıq ki, istefasının səbəblərini dəqiqləşdirək".

**Y.Bağırzadənin istefasına AMİP-in yaxınlarda keçiriləcək qurultayı ilə bağlı fikir ayrılıqlarının səbəb olduğu barədə məlumatlara gəlincə, A.Əlizadə dedi ki, informasiyalar əsaslı deyil:** "AMİP-in bir ay, ay yarım ərzində qurultayı keçiriləcək. Qurultaya hazırlıq üzrə təşkilat komitəsi mövcuddur. Bütün rayon təşkilatlarında konfranslar keçirilib. Təşkilat Komitəsinin iclaslarında, rayon təşkilatlarının əksəriyyətində Yusif Bağırzadə şəxsən iştirak edib. Heç bir problem olmayıb. Qurultayla bağlı onunla fikir ayrılığı olmayıb".

**A.Əlizadə onu da dedi ki, Y.Bağırzadənin istefası arzuolunmaz hadisə olsa da faciə də deyil:** "Yusif bəy Etibar Məmmədovun sədrlikdən getməsindən sonra üçüncü sədrdir və onu hər kəs sədr kimi qəbul edib. AMİP fərdlərin üzərində qurulmayıb ki, bir istefanın faciəvi nəticəsi olsun. Partiyanın rəhbər strukturları var və onlar fəaliyyətdədir. Partiyanın qurultayına az qalıb, sədrliyə namizədliyini verən üzvlər olacaq və qurultay nümayəndələri ən layiqlisini seçəcək".


Yusif Bağırzadə

Qeyd edək ki, Yusif Bağırzadə noyabrın 1-də Milli Məclisə keçiriləcək seçkilərdə namizədliyini də geri götürüb. Bu barədə 37 saylı Nizami birinci (Gəncə) seçki dairəsindən aznews.az-a məlumat verilib. Qeyd olunur ki, Y.Bağırzadə namizədliyinin qeydə alınmaması üçün DSK-nın sədrinə ərizə ilə müraciət edib.

**Arzuxan Əlizadə Yusif Bağırzadənin namizədlikdən imtina etməklə bağlı DSK-ya müraciət etdiyindən də məlumatsız olduqlarını bildirdi:** "Yusif bəy bu barədə də bizə məlumat verməyib. Özü ilə əlaqə saxlaya bilsək bu addımının da səbəbini öyrənəcəyik".

**AMİP katibi Elşən Mustafayev də Yusif Bağırzadənin istefa verməsindən xəbərsiz olduğunu, istefa barədə onlara heç bir fikir bildirmədiyini dedi:** "Yusif Bağırzadə bu qərarı verərkən partiyanın rəsmilərindən heç kəsə məlumat verməyib. Bu necə olub? Heç kəsin xəbəri yoxdur.

Mənim üçün də bu istefanın səbəbləri hələ məlum deyil. Bu, partiya üzvləri üçün də gözlənilməz oldu. Telefonlarına da zəng çatmadığı üçün özü ilə əlaqə saxlaya bilmirik. Çalışacağıq ki, məsələnin səbəblərini daha ətraflı dəqiqləşdirək".

**AMİP Siyasi Şurasının üzvü Əli Orucov isə bildirdi ki, Yusif Bağırzadənin səhhətində həqiqətən də problemlər var və o, uzun müddət Almaniyadakı klinikaların birində müalicə alıb. İstefa qərarının seçkilərlə bağlı olmasını isə indidən demək çətindir:** "Ancaq partiya sədrinin istefa qərarı AMİP-in seçkilərdə iştirakına təsir göstərməyəcək. Seçkilərdə Yusif Bağırzadəyə ciddi problemlər yaradılmışdı. İmza vərəqələrini gec verdilər, ona imza toplamağa imkan vermədilər və faktiki olaraq, hökumət onu seçkiyə buraxmadı. Hər halda, səbəblər dəqiqləşməlidir. Özü ilə əlaqə saxlayıb dəqiqləşdirmə aparmadan mən bir söz deyə bilmərəm".

**Siyasi Şura üzvü yeni sədr seçmək üçün yaxın müddətdə qurultay keçiriləcəyini də istisna etmədi:** "Onsuz da Mərkəzi Şuranın qərarına uyğun olaraq, Milli İstiqlal Partiyasının seçkidən qabaq qurultayı keçirilməli idi. Artıq rayon təşkilatlarında konfranslar yekunlaşıb və işçi qrup öz işini yekunlaşdırıb. Sadəcə olaraq, Mərkəzi Şura qurultayın vaxtını və yerini müəyyənləşdirməlidir. Ona görə də yeni sədr seçmək üçün növbədənkənar qurultaya ehtiyac yoxdur, növbəti qurultayın vaxtı çatmışdı".

**AMİP lideri Etibar Məmmədov Yusif Bağırzadənin AMİP sədrliyindən və partiyadan istefa verməsinə münasibət bildirib.**

**O, APA-ya açıqlamasında deyib ki, Y. Bağırzadə səhhətində yaranan problemlərlə əlaqədar istefa verib:** "O, istefası ilə bağlı AMİP rəhbərliyinə müraciət edib, bu məsələyə partiyada baxılacaq".

E.Məmmədov əlavə edib ki, Y. Bağırzadə istefa verəcəyi barədə əvvəldən ona heç nə bildirməyib.

AMİP lideri yenidən partiya sədri olmaq niyyətində olmadığını da vurğulayıb.

Qeyd edək ki, Y. Bağırzadə APA-ya açıqlamasında partiya sədrliyindən və üzvlüyündən istefa verdiyini deyib. O, bunun səbəbini səhhətində yaranan problemlərlə əlaqələndirib.

❑ Etibar SEYİDAĞA

# Nizami İcra Hakimiyyətindən 400 minlik maşın təkzibi

## ""Rolls-Royce Phantom" avtomobili Arif Qasımova məxsus deyil"

**Bir neçə gün əvvəl "Laçın" ticarət mərkəzinin rəhbərliyi ilə yol polisi arasında mübahisə yaranmışdı. Mübahisəyə səbəb yol polisinin "Laçın"ın qarşısındakı dayanacağa parkomat qoymaq istəməsi olmuşdu. Polis həmin meydançada maşınların dayanmasını qadağan etmişdi.**



Ticarət mərkəzinin rəhbərliyinin əsas arqumenti bu idi ki, həm müştərilər, həm də "Laçın"da alver edənlər maşınlarını bu dayanacaqda saxlayırlar. "Bu qadağa ticarət mərkəzinin müştərilərinin sayının azalmasına səbəb olacaq" - deyə rəhbərlik bildirib.

Sonradan bu mübahisə böyüyüb. Ticarətçilər etiraz olaraq yolu bağlamağa cəhd ediblər. Hadisə yerinə Nizami Rayon İcra Hakimiyyətinin yeni təyin olunan başçısı Arif Qasımov gəlib. Bundan sonra mövzu dəyişdi. Bəzi saytlar yazdılar ki, başçı hadisə yerinə 400 minlik "Rolls-Royce Phantom" maşını ilə gəlib. Saytlarda həmin avtomobilin fotosu da yayılıb.

Musavat.com bu iddia ilə bağlı Nizami Rayon İcra Hakimiyyətinə sorğu verib. İH-dən sorğumuza cavab olaraq bildirilib ki, sözügedən maşın Arif Qasımovun deyil. Həmçinin deyilib ki, icra başçısı məlum hadisə zamanı əraziyə özünün xidməti avtomobili ilə gedib.

Musavat.com-un araşdırmaları zamanı o da məlum olub ki, "Rolls-Royce Phantom" maşını "Laçın" ticarət mərkəzinin sahibi Məsud Vəliyevə məxsusdur.

YENİ MÜSAVAT
N 222 (6250) 8 oktyabr 2015



# Hökumət vəd verdi: 2016-cı ildə 22 min müəllimin maaşı artırılacaq

## Parlamentdəki büdcə müzakirələrində təhsil işçilərinə də güzəştli ipoteka verilməsi təklif edildi

**Oktyabrın 7-də Milli Məclis Siyasəti və Dövlət Quruculuğu, Regional Məsələlər, Elm və Təhsil, Mədəniyyət, Beynəlxalq Münasibətlər və Parlamentlərarası Əlaqələr və İnsan Hüquqları komitələrinin və hökumət üzvlərinin iştirakı ilə 2016-cı ilin büdcə layihəsi ilə bağlı növbəti müzakirələrini keçirib. Xatırladaq ki, parlament oktyabrın 13-14 tarixlərində büdcə müzakirələrini plenar iclasa çıxaracaq. Seçkilərlə bağlı proses deputatları daha intensiv işləməyə və ölkənin həyatı üçün mühüm əhəmiyyət kəsb edən sənədin müzakirələrini bitirməyə vadar edir.**

Komitələrin birgə iclasında iştirak edən **ombudsman Elmira Süleymanova** QİÇS və narkomaniyadan danışıb. Deyib ki, bunlar sürətlə artan bəlalardır. “Preventiv üsullarla, təbliğat aparmaqla bunun qarşısını almaq lazımdır. Çünki onun hələ də müalicəsi yoxdur”- deyən ombudsman vurğulayıb ki, narkomaniyanın qarşısını almaq, müalicəsi mümkündür və buna daha çox fikir verməliyik: “Cəzaçəkmə müəssisələrinə gedərkən müşahidə edirik ki, orada daha çox cavan kişilər narkomaniyaya bulaşıblar. Həm özləri əzab çəkir, həm dövlət üçün çox böyük xərcdir”. **E.Süleymanova bəzi ali məktəblərdə təhsil haqlarının yüksək olduğunu da qeyd edib. Onun fikrincə, 3400 manat illik təhsil haqqını ödəmək bu gün Azərbaycan ailələri üçün çətindir. Uşaq evləri haqqında da danışan ombudsman qeyd edib ki, bunlar təhsilin ilk pilləsidir və onlara fikir verməк lazımdır. E.Süleymanova bildirib ki, burada məqsəd yeni kurrikulum əsasında dərslər keçirilən zaman uşaqların çətinliyə düşməməsidir. Ombudsman rayonlarda hüquq məsləhətxanalarının olmaması məsələsinə də toxunub:** “Rayonlarda insan hüquqlarının pozulması, məmur özbaşınalıqlarının artmasının səbəbi yerlərdə hüquq məsləhətxanalarının olmaması ilə bağlıdır”. E.Süleymanova hərbi qulluqçuların kirayə mənzil pulu məsələsini də vurğulayıb:

“Bakı şəhərində 47,4 manat, rayonlarda 33 manat, digər yaşayış məntəqələrində isə 28 manat hərbçilərə kirayə üçün ev pulu verilir. Bu pulla o, harada ev tapa bilər ki, ailəsinin saxlasın”.

**O, tabeliyində olan bəzi işçilərin əmək haqlarının artırılması ilə bağlı çıxış edib. Bildirib ki, 10 nəfər işçi var ki, mütəxəssis kimi işə qəbul olunub və haradasa 200-240 manat əmək haqqı alır:** “Hesab edirəm ki, mütəxəssis kimi işə götürülən həmin şəxslərin məsləhətçi ştatı ilə əvəzlənməsi onlara dəstək olardı”.

**Deputat Qüdrət Həsənquliyev gələn ilin büdcəsindəki azalmalardan danışıb.** “Bu gün Azərbaycan bazar iqtisadiyyatı şəraitində yaşayır. Dövlət universitetlərinin, səhiyyə obyektlərinin özəlləşdirilməsi həm büdcə üçün, həm də özəl universtitelər üçün yaxşı hal ola bilər”-deyən deputat qaçqın və məcburi köçkünlərlə də bağlı məsələyə də toxunub: “Qaçqın və məcburi köçkünlərə ayrılan vəsaiti azaltmaq yox, əksinə, artırmaq lazımdır. 20-25 ildir ki, onlar ağır şəraitdə yaşayırlar. Düşünürəm ki, onların problemləri həll olunmalıdır. Azərbaycanın real artımı 2016-cı ildə 2,5%, Ermənistanda isə bu göstərici 0% olacaq”.

**Q.Həsənquliyev Naxçıvana ayrılan maliyyənin azaldılmasından şikayətlənib. Bildirib ki, Ermənistan 2,6 milyard dollarlıq büdcəsinin 114 milyon dollarını Qarabağa ayırıb:** “Azərbaycanda isə strateji cəhətdən əhəmiyyətli bir yer olan Naxçıvana ayrılan dotasiya 15,4 milyon dollar azaldılıb. Buna görə düşünürəm ki, ora ayrılan dotasiyanın azaldılması yaxşı hal deyil. Naxçıvan hər tərəfdən blokada şəraitində olan bir ərazidir. Bunu özüm naxçıvanlı olduğuma görə demirəm, belə bir vəziyyət harda olsa, dilə gətirərdim”.

**Q.Həsənquliyev “Azəristiliktəchizat”, “Azərsu” və “Azərbaycan Hava Yolları” (AZAL) səhmdar cəmiyyətlərinə dövlət tərəfindən dotasiyaların dayandırılması təklifi ilə də çıxış edib. (apa.az) Deputat müzakirələr zamanı maliyyə naziri Samir Şərifova sual ünvanlayıb:** “Büdcə zərfi ilə tanış olarkən görürük ki, bəzi səhmdar cəmiyyətlər dövlət zəmanəti hesabına götürdüyü borcları ödəyə bilmir. Halbuki həmin təşkilatların çoxu həm də vergi borclarını tam həcmdə yerinə yetirmirlər. Bundan başqa, görürük ki, ”Azəristiliktəchizat”, “Azərsu” və “Azərbaycan Hava Yolları” kimi səhmdar cəmiyyətlərə həm də dövlət büdcəsindən əlavə pul ayrılır. Təsərrüfat hesablı bu qurumların həm borclarını ödəyəcəyik, həm də pul ayrılacaq? Bu nə dərəcədə doğrudur? Maliyyə Nazirliyi bir araşdırma aparırmı ki, bu vəsaitdən səmərəli istifadə edilir? Niyə bu subyektlərin hazırkı maliyyə durumu bu vəziyyətdədir?"

Maliyyə naziri S.Şərifov deputatın sualına cavab olaraq bildirib ki, bəzi qurumların göstərdiyi xidmətlərin tarifləri sərbəst deyil, bunu Tarif Şurası tənzimləyir: “Tarif müəyyənləşdirilərkən, bunun əhaliyə təsiri, sosial effektivlik nəzərə alınır”. Bununla belə, məsələnin düzgün qoyulduğunu deyən maliyyə naziri qeyd edib ki, bu istiqamətdə tədbirlər görülür.

Deputat Qənirə Paşayeva güzəştli qaydada ipoteka kreditləşməsindən yararlanan əhali qrupuna müəllimlərin də şamil olunması təklifi ilə çıxış edib. Müzakirələrdə iştirak edən maliyyə naziri qeyd edib ki, gələcəkdə güzəştli kateqoriyaya aid əhali qrupu artırıla bilər. Qeyd edək ki, ipoteka kreditləri üzrə güzəştlərdən şəhid ailəsinin üzvü (əri/arvadı, övladları), Milli Qəhrəman (özü, əri/arvadı, övladları), məcburi köçkün və ya ona bərabər tutulan şəxs, üç ildən az olmayan müddətdə dövlət qulluqçusu işləyən şəxs, elmlər namizədi və ya doktoru elmi dərəcəsi olan şəxs, idman sahəsində xüsusi xidmətləri olan şəxslər (fəxri bədən tərbiyəsi və idman xadimi, ölkə miqyaslı yarışların qalibi (I yer), beynəlxalq miqyaslı yarışların mükafatçıları (I, II və III yerlər) və üç ildən az olmayan müddətdə hərbi xidmətdə olan (müddətli həqiqi hərbi xidmətdə olan hərbi qulluqçulardan başqa), eləcə də ehtiyata və istefaya buraxılmış Azərbaycan Respublikasının hərbi qulluqçuları yararlana bilər. “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 41.0.6-cı, 41.0.7-ci, 41.0.8-ci, 41.0.10-cu, 42.0.3-cü, 42.0.4-cü və 42.0.5-ci maddələrində nəzərdə tutulan hallarda ehtiyata və ya istefaya buraxılmış hərbi qulluqçulara ipoteka krediti üzrə güzəştlər şamil olunmur.

Əlavə edək ki, ipoteka kreditləri üzrə güzəştlərdən istifadə etmək hüququ olan hər bir ailə (şəxs) bu güzəştlərdən yalnız bir dəfə istifadə edə bilər.

**Azərbaycanda gələn il orta ümumtəhsil məktəblərinin 22 min müəlliminin maaşı artırılacaq. Bunu isə Milli Məclisin Sosial siyasət komitəsinin sədri Hadı Rəcəbli deyib. O bildirib ki, gələn il Azərbaycanın 12 regionunda müəllimlərin attestasiya mərkəzi yaradılacaq və 22 min müəllimin maaşı artırılacaq:** “Sosial sahələrlə bağlı rəqəmlər azaldılmayıb və gələn il müəllimlərin maaşının artırılması nəzərdə tutulub”.

**❑ E.PAŞASOY**

# Siyasətin iki Putini....



**Hüseynbala SƏLİMOV**

**Niyə görə bəzi siyasətçiləri eşitmək həmişə maraqlıdır? Elələri var ki, hazırcavab və orijinal adam təsiri yaratmaqdan ötrü dəridən-qabıqdan çıxsalar da onları heç kim sevmir...**

Burada Polşaya birinci gedişimiz yada düşdü. Bizi parlamentə aparmışdılar. O vaxt bizə ön cərgələrdən birində oturmuş bir deputatı göstərdilər və dedilər ki, bu adam Lex Valensadır...

Heyrətlə ona baxırdım. Zarafat deyildi, qarşımda kommunizmin belini qırmış adamlardan biri dayanmışdı...

O, mənim üçün həmişə maraqlı idi və mən bu marağı təkcə bu adamın inqilabi keçmişi ilə bağlamırdım...

Valensa adi bir fəhlə, elektrik idi. Amma prezident olanda intellektualları öz ətrafına toplaya bildi. Onda və eləcə də sonralar çox məşhur olan L.Baltseroviç də onunla idi...

Nədən birdən - birə bunları xatırladım? Bugünlərdə Lex Valensanın müsahibəsini oxudum. Etiraf edirəm ki, çoxdan belə müsahibə oxumamışdım - intellektualizm göz önündə idi, onu uydurmağa, nümayiş və göz gördü etməyə ehtiyac yox idi...

Valensa Rusiya müxalifətinə gözəl bir təklif vermişdi. Demişdi ki, siz intellektual sferaya keçin, intellektual elita ilə rabitə yaradın, göstərin ki, ölkə intellektualları sizinlədir, siz daha sadə və daha elmi təkliflər irəli sürə bilərsiniz!..

Qərəz, o, Rusiya müxalifətinə ağıllı mübarizənin yolunu göstərdi... Amma mənim üçün daha maraqlısı bu idi ki, görən, Lex Valensa V.Putin haqqında nə deyəcək?..

Bəli, demişdi. O demişdi ki, siyasətdə iki Putin var. Onlardan birinə qarşı mübarizə aparmaq, o birisinə isə kömək etmək lazımdır, çünki birinci Putin elə hey SSRİ üçün nostalji keçirir, elə hey SSRİ-ni bərpa etmək haqqında danışır, ikinci Putin isə sadəcə, öz ölkəsini gücləndirir, başa düşür ki, onun bu ölkəsi çox mürəkkəb ölkədir, daim parçalana bilər, o, da bunun qarşısını almağa cəhd edir...

Müsahibədə bir detal da mənim çox diqqətimi çəkdi. Bu detal həm ermənilərə, həm də Putinə böyük bir dərs ola bilərdi...

Valensa deyir ki, prezident olarkən Litvaya getmişdim. Orada insanlar məndən xahiş edirdi ki, sərhəddə buraxılış-keçid məntəqələrinin sayını artıraq ki, adamlar daha rahat hiss etsinlər özlərini...

Deyir ki, onda mən litvalılara dedim ki, siz nə danışırsınız, biz, ümumiyyətlə, sərhədləri götürmək istəyirik, mən velosipedlə Litvaya gəlib nahar etmək və balıq tutmaq, axşam da evimə qayıtmaq istəyirəm. Tezliklə elə belə də oldu, sərhədlər tamam götürüldü və litvalılar həmin söhbətin davamı ki, Valensaya bir velosiped bağışladılar ki, hansını ki, o, bu gün də saxlayır...

Müsahibədə Valensa bunları Krımla bağlı deyirdi. Onun fikrincə, indi tankla heç kim problem həll etmir, bunu yalnız Rusiyada edirlər...

Mən müsahibəni iki dəfə oxudum. Bir dəfə oxudum, sonra daha bir dəfə nəzərdən keçirdim ki, əsas məqamlar yadımda qalsın. Nə demək olar? Belə bir nəticəyə gəlməyə məcbursan ki, Avropada hətta adi elektrik də MDB məkanındakı siyasətçilərdən daha intellektual görünür... Həm də əsas bilirsiz nədir? Bilirsiz niyə onlar daha intellektual, daha ağıllı görünürlər? Ona görə ki, adi, sadə məntiq onların tərəfindədir. Bu insanlar sadə insan məntiqindən çıxış edirlər, “siyasi yanıltmaclar”la danışmırlar...

Ona görə də inandırıcı görünürlər. Valensa deyir ki, mənim atam müharibədə həlak olub. Əlavə edir ki, əgər bu gün baş verənləri ona danışsaydım atam bu dəfə infarktdan ölərdi, çünki o, inanmazdı ki, Almaniya ilə Polşa arasında heç bir sərhəd yoxdur...

Doğrudan da, indi dünyanın məntiqi budur. Siyasət də bu məntiqə söykənməlidir. Təsəvvür edin, bu məntiq Qafqazda da təsdiq olunsaydı bu qədər münaqişəyə, qan tökməyə ehtiyac olardımı?!.

Avropada niyə belə oldu? Ona görə oldu ki, hər şeyin başında insanı və onun maraqlarını qoydular, hər şeyi buna tabe etdilər...

Bizim siyasətçilər, keçmiş sovet məktəbini keçənlər isə avropalılar kimi maraqlı və inandırıcı görünmürlər, çünki daim yalan danışırlar, daim aldatmağa cəhd edirlər, onlara elə gəlir ki, insanlar siyasət haqda nə qədər az bilsələr, bir o qədər yaxşıdır...

Nəticəsi də bu günün keçmiş sovet məkanıdır. Necə deyərlər, hər şey göz önündədir. Bir məsələdə deyildiyi kimi: görünən dağa nə bələdçi? Məgər belə deyilmi?..



# Xarab efirin Nuşirəvanı

Zamin HACI
zaminhaci@gmail.com

"Deyir: "Bu viran kəndi verdikdən sonra mənə,
Buna bənzər bir neçə kənd verməlisən yenə".
O biri quş deyir ki: "Əl çək, mənə dil tökmə,
Padşahın zülmünü gör, yetər qəm-qüssə çəkmə.
Əgər padşah bu isə, onun sayəsində sən,
yüz min belə xaraba kənd alacaqsan məndən".
**(Nizami Gəncəvi, "Sirlər xəzinəsi")**

**Çoxdandır milli telekanalizasiyalarımızı izləmədiyim üçün MTRŞ sədri Nuşirəvan müəllimlə ANS arasındakı dava məndən ötrü beynəlxalq xəbərlər kimi bir şeydir. Özü də nüfuzlu bir dünya agentliyinin yox, örnək üçün, AzərTAc-ın beynəlxalq xəbərləri kimi. Təxminən "Avstraliyada kenquru təpiklə fermerin burnunu qırdı", "Pakistanda ər-arvad balaca uşaqlarını bişirib yedilər" tipli xəbərlər olur, bax onlardan.**

Ancaq Nuşirəvan müəllimin, nəhayət, pultun ixtiyarını əlinə alıb bir-bir verilişləri söndürməsi maraqlı prosesdir. Qabaqlar hətta Ramiz müəllim yazırdı, lakin heç kim veriliş söndürə bilmirdi. Bəs bu cəsarət Nuşirəvan müəllimə hardan verilib?

Haşiyə çıxaraq qeyd edim ki, bizim efir tarixən yarımamışdır. Bunun ən məşhur aparıcı və jurnalistləri adətən ya fırıldaqçı çıxıblar, ya da reket. Elə son illəri yada salın: biri camaatı ağladıb pul yığırdı, tutdular. Başqası Almaniyanı dağıdırdı, axırda kabinetini dağıtdılar. Bir ayrısı bir ayrı qələt eləyib - baxanlar bilər, mənim, açığı, efirə elə bələdliyim yoxdur. Qəzetlər yazmasa heç bunları da bilmərəm. Yəni milli efirimizdə sanki önə çıxanın vurulması sindromu vardır.

Qayıdaq Nuşirəvan müəllimin cəsarətinə. Bu, bir növ köhnə pulta təzə "batareyka" qoymaq kimi bir hadisədir, məlum deyil MTRŞ sədri enerjisini hansı mənbədən alır. Bir versiya var ki, tarixçi alim Şirməmməd Hüseynov ANS-in efirində "Milli dövlətçiliyimizin banisi Məhəmməd Əmin Rəsulzadədir, Heydər Əliyev dövlətin yox, hakimiyyətin banisidir" deyibdir, indi kanalı buna görə cəzalandırırlar. Ola bilər. Amma Nuşirəvan bəyin ANS-ə qarşı iradlarında bir gülünc söhbət gördüm, ona münasibət bildirməliyəm.

MTRŞ sədri deyir ki, ANS milli-mənəvi dəyərlərimizə rişxənd edir, pornoqrafik kino verib, cinsi azlıqları təbliğ edir və sairə. Bu haqda iraddan sonra isə kanalın təmsilçiləri MTRŞ-dən milli-mənəvi dəyərlərin siyahısını istəyibmiş. Əgər doğrudan belə hadisə olubsa mən həm ANS kanalı rəhbərliyinin yumor hissinə hörmətimi bildirir, həm də bu etiraza qoşuluram. Necə deyərlər, imam üçün ağlayanda, gərək yezid üçün də arada ağlayasan. ANS belə siyahı tələb etməkdə haqlıdır. Yoxsa Nuşirəvan kimilərinin istəyi ilə hər bir azərbaycanlının öz mənəvi dəyəri ola bilər, efiri buna necə uyğunlaşdırasan?

Əlbəttə, normal dünyada efiri bazar iqtisadiyyatı, demokratik seçkilər tənzimləyir. İnsanların dərd-sərini, problemlərini işıqlandırırsan, ictimai debatlar, müzakirələr, söhbətlər qurursan, efiri maraqlı edirsən, bununla tamaşaçı toplayırsan. Yoxsa Nuşirəvan müəllimin təmsil elədiyi hakimiyyətin *(baxmayaraq ki, telekanallar da elə o hakimiyyətin media qoludur)* kriteriyası lavaşı necə yemək haqda məşhur ata sözümüzdəki kimidir: "Qırağından kəsmə, ortasına dəymə, doğra, doyunca ye". Siyasi verilişi qoymursan, debata icazə vermirsən, hətta dini verilişi də bağlayırsan, bəs bu yetimlər şou veriliş də verməsin, nə versin? Yenə faciə günü olsa qoboy çalıb ağlaşardılar. AzTV isə səhərdən axşama Almaniyanı dağıda bilməzlər axı. AzTV-nin pulu büdcədən birbaşa gəlir, işçiləri də gözütoxdur - aralarında baykerlər yoxdur. Ya hamısını AzTV-3-4-5-6... kimi nömrələyib büdcəyə salın, ya da girinc eləməyin.

Əhvalat bir az da yapistlərin hansısa naziri vurması prosesinə oxşayır. Misal üçün, nəqliyyat nazirinin kitabı bağlanıb. Bunun əlamətləri nazirliyin səlahiyyətinin əlindən alınmasında, Ziya müəllimin obyektlərinin yağmalanmasında özünü göstərir. Hətta artıq Ziya müəllimin deputatxanadakı 4-5 stabil deputat "toçkası" da bağlandı. Bəzi adamları qəfil "xəstələndilər", namizəd olmadılar. Bəzilərinin isə imzaları suya düşdü. İndi Nuşirəvan müəllim də ANS-i belə sıxışdırır. Deyir, istəsəm bütün bağlayaram, hoppanıb düşməsinlər.

Amma Nuşirəvan müəllim də ANS-in bu xarabalıqda neçə "nuşirəvanlar" yola salan "bayquş" olduğunu gərək yaddan çıxarmasın. Təki xarabalıq yaşasın!

**P.S.** *Dəli şeytan deyir ki, ANS "İlin adamı" mükafatını bu il Nuşirəvan müəllimə versin. Bütün ölçüləri uyğun gəlir. Qabaqkı namizədləri gördüyüm üçün yazıram.*

# Türkiyə "Rusiya, yoxsa Qərb" seçiminə sürüklənir

## İki ölkə münasibətləri "qırmızı xətt"ə yaxınlaşır; Türkiyə ordusu döyüş hazırlığı vəziyyətinə gətirildi; **Əhməd Davudoğlu:** "Suriya münaqişəsi türk-rus münaqişəsinə keçməməlidir"; **rusiyalı politoloq:** "Moskva Suriyada Vyetnam tələsinə düşə bilər..."

**Rusiyanın Suriya konfliktinə hərbi müdaxiləsi Türkiyə-Rusiya münasibətlərinin gələcəyini bütün ciddiliyi ilə sınağa çəkib. Çünki Moskvanın bu konfliktdə güddüyü hədəflər qardaş ölkənin, Qərbin əsas hədəfləri ilə xeyli dərəcədə üst-üstə düşmür - rəsmi Kreml əməliyyatların məqsədinin sırf İŞİD-i məhv eləmək olduğunu dönə-dönə bəyan eləsə də.**

Bununla belə, müşahidələr iki ölkə münasibətlərinin sürətlə "qırmızı xətt"ə yaxınlaşmaqda olduğunu göstərir. Son olaraq bunu prezident Rəcəb Tayyib Ərdoğanın bəyanatından, daha doğrusu, Rusiyaya xəbərdarlığından sezmək olar. Rus qırıcılarının Türkiyə hava məkanını pozması ilə bağlı o, işarə vurmuşdu ki, Rusiya Türkiyəni itirə bilər və bunun da ziyanını ən çox Rusiya çəkər.

"Ankaranın Suriya ətrafındakı situasiyadan dolayı Moskva ilə maraqlarla bağlı konflikti yoxdur". Bunu isə baş nazir Əhməd Davudoğlu dünən aviazərbələrlə bağlı durumu şərh edərkən bildirib. "Lakin Kreml bizim narahatlığımızı diqqətə almalıdır. Biz Rusiya ilə dost və qonşu ölkələrik. Ancaq Türkiyə öz sərhədlərinin təhlükəsizliyi məsələsində güzəştə gedə bilməz" - söyləyib baş nazir.

Onun sözlərinə görə, "Suriya böhranı türk-rus böhranına keçməməlidir". Davudoğlu daha sonra deyib ki, Rusiyanın hava zərbələri Suriya müxalifətinə qarşı yönəlib və yalnız 57 zərbədən 2-si İŞİD mövqelərinə endirilir. "Biz İŞİD-lə mübarizə aparan hamını dəstəkləyirik. Lakin mötədil Suriya müxalifətinə hücumlar İŞİD-i gücləndirir" - əlavə edib baş nazir.

***

Rusiya isə həqiqətən Suriyada mürəkkəb situasiya ilə qarşılaşıb və bu, təkcə Türkiyə amili ilə bağlı deyil. Qəliz durumu artıq rusiyalı ekspertlər də müşahidə etməyə başlayıblar. Məsələn, rosbalt.ru saytına açıqlamasında rusiyalı politoloq **Aleksey Makarkin** bildirib ki, Rusiya üçün əsas təhlükə Suriyadakı situasiyanın özünün tam nəzarəti altında olduğunu hesab etməsidir *(axar.az)*.

**Onun sözlərinə görə, qısa zaman ərzində Suriyadakı problemləri həll etmək mümkün olmayacaq:** "Bir azdan proseslər ən pik nöqtəsinə çatacaq. Moskva müəyyən müddətə Əsədin qaydaları ilə oyun başlada bilər. Rusiya elə hesab edir ki, Suriyadakı Əsəd qoşunları, İran ordusu və "Hizbullah" onun rəhbərliyi altında birləşib, İŞİD-ə qarşı dayana biləcək. Əgər bu ordular İŞİD-ə qarşı dayana bilməsə, Moskva ABŞ-ın Vyetnamda qarşılaşdığı duruma düşəcək".



***

**"Qərb Türkiyəni Rusiya ilə üz-üzə qoymağa cəhd edəcək". Bu barədə isə Rusiyanın Suriya siyasəti fonunda Qərbin Türkiyəni müharibəyə təhriki məsələsini şərh edən politoloq Fərhad Mehdiyev bildirib. O, Qərbin Türkiyəni seçim qarşısında qoyacağını düşünür:** "Əvvəla, Rusiyanın bu müharibəyə müdaxiləsi Türkiyənin xeyrinə də ola bilər, o şərtlə ki, İŞİD və Azad Suriya Ordusundan (ASO) sonra Rusiya YPG-nin də mövqelərinə zərbə endirsin. Belə olan halda Əsəd qüvvələri Suriyanın şimalını təkrar ələ keçirə bilər. Bu da şimali Suriyada sığınacağı olan PKK-ya böyük bir zərbə olardı. Lakin Rusiyanın belə bir addım atacağı məlum deyil, eyni zamanda Ərdoğan bu məsələni aydınlaşdırmayıb. Rusiyanın son addımı Qərbin müəyyən maraqlarını da təhlükə altına qoyur".

**Politoloqun qənaətincə, Rusiyanın Suriyaya bu şəkildə müdaxiləsi daha böyük savaşın meydana çıxmasına səbəb ola bilər:** "Qərb Türkiyəni Rusiya ilə üz-üzə qoymağa cəhd edəcək və çox güman ki, Türkiyəni seçim qarşısında qoyacaq: ya Qərb, ya da Rusiya. Hətta NATO Rusiyaya gözdağı vermək istəsə, bunu Türkiyənin əli ilə etməyə çalışacaq. Ancaq hava hücumuna qarşı müdafiə sistemləri zəif olan Türkiyə buna getməyəcək. Belə olan halda isə nəticədə Türkiyə məcburən Qərbi seçəcək, halbuki bu konfliktdə Rusiyanın yanında olmaq kürd probleminin həlli baxımından Ankaraya daha sərfəlidir. Türkiyə NATO kartını seçəcək və böyük ehtimalla, "Patriot" raketlərinin quraşdırılmasını istəyəcək. Bu variant isə Türkiyə üçün daha təminatlı ola bilər. Rusiya kürdlərin müstəqilliyini və Suriyanın bölünməsini onsuz da dəstəkləməyəcək. Çünki nə Əsəd, nə də İran bunu istəyir. Üstəlik, bu, Qərb və İsrailin maraqlarına uyğun olduğu halda, Rusiyanın marağına uyğun gəlmir".

***

Qeyd edək ki, ötən gün Rusiyaya aid daha bir döyüş təyyarəsi Türkiyə hava məkanını pozub. Hadisədən sonra Türkiyə Xarici İşlər Nazirliyi Rusiyaya xəbərdarlıq edib. Rusiyanın Xarici İşlər Nazirliyi isə faktı etiraf edərək hadisənin naviqasiya xətası nəticəsində baş verdiyini bildirib.

Rusiya döyüş təyyarələrinin ikinci dəfə Türkiyə sərhədini pozması artıq Ankaranın səbir kasasını doldurub, Türkiyə ordusu hazırlıq vəziyyətinə gətirilib, hava hücumundan müdafiə sistemləri Rusiya hərbi bazasının yerləşdiyi Tartus şəhərinə yönəldilib. Təhlükəsizlik tədbirləri ilə əlaqədar radarlar gücləndirilmiş rejimə keçib. Türkiyə Baş Qərargahı Suriya tərəfdən hava sahəsinin pozulacağı təqdirdə hədəfin dərhal məhv edilməsinə dair göstəriş verib.

***

Beləcə, hələlik dəqiq bilinmir ki, Rusiya Türkiyənin, demək, həm də NATO-nun hava sərhədlərini təsadüfən pozur, yoxsa məqsədli şəkildə? Burdaca qeyd edək ki, Rusiya Müdafiə Nazirliyi belə insidentləri araşdırmaq üçün Türkiyə və Qərb dövlətlərinə birgə işçi qrupları yaratmağı təklif eləmişdi. O da diqqətçəkicidir ki, bütün bu izahatlara və təkliflərə rəğmən, ABŞ Türkiyəni Rusiyaya qarşı müharibəyə təhrik edən bəyanatlar verməkdə davam edir.

❑ **Siyasət şöbəsi**



# Türkiyə Qarsa ordu göndərdi - hərbi əməliyyatlar başlayır

**Türkiyənin Qars vilayətinin Kağızman bölgəsinə PKK terrorçularına qarşı əməliyyatlar keçirmək üçün əlavə qoşun yeridilib. Avropa.info Türkiyə mətbuatına istinadən xəbər verir ki, vilayətin Dibəkqaya mövqeyi, Madur vadisi və Çömçə dağı bölgəsinə çoxlu sayda əsgər və zirehli texnika cəlb edilib.**

Terrorçuların qaçış bölgələrini nəzarətdə saxlamaq üçün çoxlu sayda hərbi vertolyot ərazidə döyüşə hazır vəziyyətə gətirilib.

Xatırladaq ki, dünən bölgədə keçirilən əməliyyatlar nəticəsində 3 PKK terrorçusu öldürülüb, 2 terrorçu ələ keçirilmişdi.

YENİ MÜSAVAT
N 222 (6250) 8 oktyabr 2015

**Rusiyanın Suriya savaşına aktiv şəkildə qoşulması Yaxın Şərqdəki durumla bağlı prosesin həm siyasi, həm də hərbi müstəvidə hərəkətliliyini daha da artırıb. Rusiya qırıcılarının Suriya ərazilərinə hava zərbələri endirməsi ilk baxışdan Əsəd rejiminə ciddi dəstəkdir. Ancaq bəzi ekspertlər məsələyə sadəcə Kremlin Əsədə dəstəyi kimi baxmağı doğru saymırlar.**

# “Rusiya Suriyada Ukrayna "bazarlığına" çıxıb”

## Aida Bağırova: “Bütün hallarda Suriya problemi sonuncu fazaya daxil olub”

**BDU-nun dosenti, Yaxın Şərq üzrə ekspert Aida Bağırova** düşünür ki, Rusiyanın savaşa aktiv şəkildə qoşulmaqda bir neçə məqsədi var: “Sentyabrın 30-da Bəşər Əsəd Rusiya prezidenti Vladimir Putinə Rusiyanın Suriyadakı hərbi bazasında yerləşən hərbi hava qüvvələrindən istifadə haqqında müraciət etmişdi. Əsəd bu qüvvələrdən İŞİD-ə və Suriya ərazisindəki digər ekstremist qruplaşmalara qarşı istifadə edilməsini istəyirdi. Elə həmin gün Rusiya Dövlət Dumasının qərarı ilə Vladimir Putinə Suriyadakı HHQ bölmələrindən istifadə hüququ verildi. Onu da vurğulayım iki, həmin bazada Rusiyanın ən çağdaş hərbi texnikası, o sıradan SU-34, SU-24, SU-25 hərbi uçaqları yerləşdirilib. Bundan sonra dünya mediasında belə fikirlər səslənməyə başladı ki, Rusiya artıq Suriyaya müdaxilə edir və Suriya probleminin çözülməsində bu və ya digər formada iştirak etmək əzmindədir. Bildirilirdi ki, Rusiyanın hərbi uçaqlarının əsas məqsədi terrorçuların hazırlandıqları hərbi bazalarına, hərbi texnikalarına, eləcə də onların silah-sursat anbarlarına havadan hücumlar endirməkdir. Beləliklə, Rusiya uşaqları bir neçə dəfə Latakiya, Hələb, Həma əyalətlərində terrorçulara zərbələr endirdi. Rusiya Silahlı Qüvvələri Baş Qərargahının yaydığı açıqlamada deyilirdi ki, hava hücumu zamanı Suriya ərazisindəki İŞİD qüvvələrinin, eləcə də digər terror qruplaşmalarının bir neçə bölməsi məhv edilib, onlara aid texnika və hərbi bazalar sıradan çıxarılıb, hava zərbələri heç bir halda mülki əhaliyə qarşı yönəlməyib. Qərb mediası isə həmin günlərdə tam fərqli informasiyalar yayır, bildirirdi ki, Rusiya hərbi uçaqlarının zərbələrindən dinc əhali də ciddi ziyan çəkib, ən güclü zərbələr isə Türkiyə sərhədi boyunca yerləşən yaşayış massivlərinə dəyib. Bu olayların ardınca Rusiya prezidenti Vladimir Putin BMT Baş Assamleyasında çıxış etdi, həmin səfər çərçivəsində ABŞ prezidenti Barak Obama ilə görüşdü və Suriya ətrafındakı proseslərlə bağlı geniş müzakirələr aparıldı. Öncə Putin və Obamanın Suriyadakı durumun nizamlanması ilə bağlı ilkin razılaşma əldə etmələri xəbəri yayıldı. Ancaq Barak Obama görüş haqqında açıqlamasında bu xəbəri təkzib etdi. Bəllidir ki, Rusiya ilə ABŞ müxtəlif koalisiyalarda təmsil olunurlar. Obama öz açıqlamasında dedi ki, ABŞ-ın iştirak etdiyi koalisiya Rusiyanın təmsil olunduğu koalisiyadan qat-qat genişdir. Aydındır ki, bu gün hər iki düşərgə eyni məkanda güc göstərisinə çıxıblar”.



**“Rusiya Suriyanın Türkiyəyə yaxın ərazilərində hərbi əməliyyatları davam etdirsə, aydındır ki, bundan əziyyət çəkən insanlar imdad yeri kimi Türkiyəyə üz tutacaq”**

**Bir sıra ekspertlər iddia edir ki, Rusiya uçaqlarının Suriyaya müdaxiləsi Əsəd qüvvələrinə ciddi dəstək olsa da, Qərb buna imkan verməklə Rusiyanı tələyə salacaq. Aida Bağırova isə düşünür ki, Rusiya öz maraqları naminə istənilən halda Suriya üçün vuruşacaqdı:** “Burada iki məsələyə xüsusi diqqət ayrılmalıdır. Suriya Yaxın Şərqdə Rusiya üçün son istinad nöqtəsidir. Əgər koalisiya qüvvələri Bəşər Əsəd qüvvələrini tam sıradan çıxarsa və Rusiya Suriyadan çıxmış olsa, bu o deməkdir ki, Rusiya Yaxın Şərqi tamamilə itirəcək. Təbii, Putin bunu da anlayır. Bu məsələdə Rusiyanın maraqları ilk növbədə Suriyanın rəsmi dairələri ilə üst-üstə düşür. Suriya savaşı başlayandan ən müxtəlif qaynaqlar Rusiya ilə İranın Əsədi dəstəklədiyi haqqında informasiyalar yayıb. Mən bu xəbərlərin mötəbərliyinə inanıram. Əgər Rusiyanın və İranın maddi, hərbi, humanitar dəstəyi olmasaydı, Əsəd rejimi bu qədər davam gətirə bilməzdi. Müxtəlif kanallar vasitəsilə ötürülən bu yardım Əsəd rejiminin dayanıqlı olmasına gətirib çıxarıb. Bundan başqa, Suriyada müxtəlif qüvvələr döyüşür. Terroristlərlə yanaşı, artıq ölkədə yeni koalisiya da yaranıb. O koalisiyada təmsil olunan qüvvələri Qərb dəstəkləyir. Mən deməzdim bu, yüzdə yüz dəstəkdir, ancaq görünən odur ki, dəstək var. Rusiyanın bu savaşa cəlb olunması şəraitində əks tərəfdə duran qüvvələrin gücü Bəşər Əsəd qüvvələrinə müqavimət göstərmək üçün yetərli olmayacaq. Bu müqavimətin mümkün olması üçün onların ciddi dəstəyə ehtiyacı var”.

**Yaranmış durumda beynəlxalq güclərin necə hərəkət edəcəyi də olduqca önəmlidir. A.Bağırova deyir ki, bütün hallarda Rusiyanın da müdaxiləsindən sonra Suriya savaşı sonuncu fazaya daxil olub:** “Yaxın Şərq problemləri, İranın nüvə silahı ilə bağlı məsələlər, Yəməndəki proseslər, İraqdakı gərgin mübarizə, Liviya ətrafında gedən mürəkkəb proseslər Suriya məsələsini daha önə çıxarıb. Yaşananlar göstərir ki, Suriya məsələləri prioritetdir. Əslində Suriya potensialına görə qabaqcıl ərəb ölkəsi deyil, ancaq tale belə gətirib ki, Yaxın Şərqin problemlərinin açarı Suriyadadır. Ona görə də bu məsələnin çözülməsi bir tərəfdən Rusiyanın rolunu qabardır, ikinci tərəfdən Rusiya Suriyaya müdaxilə etməklə Ukrayna məsələsinə görə Qərblə çəkişməsini arxa plana keçirmək istəyir, üçüncüsü də Putin rejimi artıq Qərblə üz-üzə gəlmək məcburiyyətindədir. Rusiya ətrafında daralan çevrədən çıxmaq üçün məqam axtarır. Buna görə də bütün diqqətini Suriya üzərində cəmləyib. Mən Suriya məsələsinin yaxın zamanlarda çözüləcəyinə inanmıram. Ancaq bu gün maraqlı tərəflərin gələcək addımlarının sanki əsası qoyulur. Məsələn, Səudiyyə Ərəbistanı Rusiya qüvvələrinin Suriya ərazisindəki müxtəlif hərbi birləşmələri bombalamasına qarşı çıxmayıb... Ölkələrin indiki duruma yanaşmaları yaxın gələcəkdə onların mövqedə duracaqları haqqında proqnozlar səsləndirməyə imkan verir. Görünən odur ki, yaxın gələcəkdə proses irəliləyəcək və prosesə müdaxilə edən qüvvələrin sayı da artacaq”.

**Rusiyanın Suriyaya müdaxiləsi ilə Sovetlər Birliyinin Əfqanıstana müdaxiləsi arasında da paralellər aparılır. Ekspert düşünür ki, bəzi parametrlərə görə müqayisələr aparmaq mümkün olsa da indi tarixi şərait tamamilə fərqlidir:** “Dünya həmin dönəmdə proseslərə, bütünlükdə regiona tamamilə başqa gözlə baxırdı. Əfqanıstan məsələsi "soyuq savaş" dönəmində baş verib, indi durum tam fərqlidir. Oxşar cəhət odur ki, o zaman açar ölkə rolunu Əfqanıstan, indi isə Suriya oynayır. Əfqanıstan da potensialına görə zəif dövlətdir. Ancaq strateji baxımdan çox önəmli nöqtədədir. Bu gün dəqiq söylənə bilməz ki, sabah bu məsələ kimin xeyrinə həll ediləcək".

**Oktyabrın 5-də Suriyadakı hərbi bazadan havaya qalxan Rusiya uçaqlarının Türkiyənin hava məkanını pozması NATO-nun təcili toplanması ilə sonuclandı. NATO baş katibi Yens Stoltenberq, eləcə də Türkiyənin baş naziri Əhməd Davudoğlu durumu qəbuledilməz adlandırdılar və olay təkrarlanarsa, dərhal cavab veriləcəyini ifadə etdilər. Rusiya tərəf isə məsələni texniki problem adlandırdı. Aida Bağırova bu versiyanı inandırıcı saymır:** “Mən Türkiyənin hava sərhədlərinin pozulmasının texniki problem olduğunu düşünmürəm. Bəllidir ki, Türkiyə digər koalisiyada təmsil olunur. Bu addımı ilə Rusiya dolayısı ilə Türkiyəni təhdid edir, ona öz yerini göstərməyə çalışır. Düşünürəm ki, bir məsələni də vurğulamağa ehtiyac var. Bu da ondan ibarətdir ki, Suriya ətrafında gedən proseslərə kürd probleminə görə də xüsusi diqqət ayrılmalıdır. Artıq İraqda kürdlərin mərkəzi formalaşıb və onlar ətraf ərazilərin hesabına dövlət qurmaq iddiasındadırlar. Suriya ilə bağlı addımlar atıldıqda bu planlar gözardı edilməməlidir. Rusiyanın bölgədə uzun müddət qalması digər proseslərə də təkan verə biləcək. Bu durumda Türkiyə öz sərhədlərinin müdafiəsi, qarşılaşdığı təhdidlərin qarşısını almaq üçün ciddi addımlar atmalıdır. Ola bilər, Türkiyə ərazisinə yaxın zamanlarda yeni humanitar həmlə olsun. Əgər Rusiya Suriyanın Türkiyəyə yaxın ərazilərində hərbi əməliyyatları davam etdirsə, aydındır ki, bundan əziyyət çəkən insanlar imdad yeri kimi Türkiyəyə üz tutacaq. Rusiyanın Türkiyənin hava sərhədlərini pozmasına maraqlı tərəflərin necə reaksiya verəcəyi regiondakı proseslərlə bağlı daha real fikir bildirməyə imkan yaradacaq. Rusiyanın bu addımı atmaqda məqsədlərindən biri də Ukrayna məsələsində Qərblə alverə getməkdir. Yeni regiondakı gedişlər çoxməqsədlidir. Ukrayna problemi yarananda mən bu prosesi görürdüm və o zaman bildirmişdim ki, Rusiya durumdan öz çıxarları üçün istifadə edəcək. Sözsüz, savaş, hərbi müdaxilələr, humanitar böhranlar həmin torpaqlarda yaşayan xalqlar üçün çox acınacaqlıdır. Ancaq bu gün dünya çapında böyük oyunlar gedir və regionda proseslərin qısa zamanda nizama düşəcəyi real görünmür”.

❑ **Aygün MURADXANLI**

## “Rusiya nə ABŞ-a, nə də Türkiyəyə güzəştə gedəcək”



Yakov Kedmi

**“Rusiya Suriya məsələsində nə ABŞ-a, nə də Türkiyəyə güzəştə gedəcək”. Bunu "Trend"ə İsrailin “Nativ” xüsusi xidmət orqanının sabiq rəhbəri, diplomat Yakov Kedmi deyib. Y.Kedmi bildirib ki, Rusiya və Türkiyə arasında çətin əlaqələr ziddiyyətlərlə doludur: “Hər iki ölkənin Avropa ilə ümumi problemləri, iqtisadi maraqları var. Lakin Türkiyə NATO-nun üzvüdür”.**

Y.Kedmi qeyd edib ki, Rusiya Bəşər Əsədi dəstəkləyir, kürdlərə rəğbət bəsləyir və dünyəvi Suriyanın tərəfdarıdır: “Eyni zamanda Türkiyənin Suriyada öz maraqları var. Bununla belə, Türkiyə və Rusiya Suriyaya təsir etmək istəyirlər”.

Ekspert əlavə edib ki, Rusiyanın üzr istəməsinə baxmayaraq, Türkiyə öz hava məkanının Rusiya təyyarələri tərəfindən qəsdən pozulmasına kəskin reaksiya göstərdi: “Rusiya Türkiyə aviasiyasının Suriya, o cümlədən kürdlərin kompakt yaşadığı rayonlar üzərində uçuşunun qarşısını almaq üçün ölkənin hava məkanını bağlayıb. Moskva və Ankaranın əlaqələrinin gələcək inkişafı prezident Rəcəb Tayyib Ərdoğandan və onun impulsiv deyil, məntiqi və Türkiyə maraqlarına uyğun davranmaq qabiliyyətindən asılı olacaq”.

# ABŞ qəzetinin Qarabağla bağlı yazısı nə vəd edir...

## “The Washington Times” Ermənistan və Rusiyanı tənqid etdi

**ABŞ-ın “The Washington Times” qəzeti “Dağlıq Qarabağ hadisələrinə yenidən baxış” adlı yazı dərc edib. Yazıda Ermənistan işğalçı dövlət kimi tanınır və 1 milyondan artıq azərbaycanlının qaçqın-köçkün vəziyyətinə düşdüyü qeyd olunur.**

Yazının müəllifi **Aleksandr Murinson** Dağlıq Qarabağ hadisələrinin qısa xronikasını verərək, erməni tərəfinin işğalı Dağlıq Qarabağdan kənar ərazilərə - Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan və Laçına yaydıqlarını bildirib: “Ermənistanın təcavüzkar dövlət olması şübhə doğurmayan faktdır. Ermənistan bu gün beynəlxalq hüquqla Azərbaycanın suveren ərazisi sayılan torpaqlarını qeyri-qanuni işğalını davam etdirir. BMT Təhlükəsizlik Şurasının qətnamələri məsələyə həqiqi qiymət verir və faktları təbliğatdan ayırır”.

Məlumatda düşmən ölkə ilə bərabər qonşu Rusiya dövləti də “vurulub”. Müəllif bildirir ki, Rusiya və Ermənistan üçün hüquq anlayışları mənasızdır.

Heç şübhəsiz ki, nüfuzlu bir mətbuat orqanında bu yazının dərc olunması müsbət amildir. Bəzi ekspertlər hesab edirlər ki, yazının bugünlərdə dərc olunması təsadüfi deyil. Bunu hazırda yüksək xətlə davam edən Rusiya-ABŞ qarşıdurması ilə əlaqələndirənlər çoxluq təşkil edir.

Qeyd edək ki, indiyə qədər “The Washington Times” qəzeti zaman-zaman Azərbaycan hakimiyyətinin əleyhinə, əsasən, insan haqları məsələsi ilə bağlı sərt yazılar dərc edib. İqtidarın mətbuat orqanı olan “Azərbaycan” qəzeti isə anındaca cavab verib. Amma nədənsə, bu yazıda hakimiyyət orqanı susqunluq nümayiş etdirir.

**“Azərbaycan” qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov** məqaləyə müsbət reaksiya verdiklərini qeyd etdi: “Müsbət yazı verilib. Seçkilərlə bağlı öz hesabıma məzuniyyət götürmüşəm. Adətən biz o zaman reaksiya veririk ki, Azərbaycan gerçəklikləri, ölkəmizdə baş verən proseslər, Azərbaycan-Ermənistan arasındakı Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətə uyğun gəlməyən, gerçək olmayan hadisələr barədə qərəzli yazılar gedir. O zaman həqiqətin necə olduğunu bildirən yazılar dərc edirik. Həmkar kimi, qeyri-obyektiv yazıları qınayırıq ki, hansısa mövzuda yazmaq istəyirsinizsə, əvvəlcə məsələnin mahiyyətini öyrənin, sonra yazın. Erməni diasporu, yaxud kimsə sifariş verirsə, Azərbaycan haqqında şər-böhtan xarakterli yazı yazın, ölkəmizi qaralayın, bu, artıq mətbuatın, jurnalistin peşə fəaliyyətinə aid deyil. Biz bu nöqtədən çıxış edərək, adətən onları ifşa edirik, qınayırıq, həqiqəti ortaya qoyuruq. Əgər bu gün həmin qəzetdə Azərbaycan gerçəkliyi barədə yazı yazılıbsa, biz bunu alqışlayırıq. Çox şadam ki, Amerikada da obyektiv yazan jurnalistlər var. Məsələni öyrənib, həqiqət necədirsə, onu yazırlar. Ölkələrin ərazi bütövlüyünü dəstəkləyən, işğalçılıq siyasətini pisləyən yazılar dərc edirlər. Buna qarşı heç bir etirazımız yoxdur. Biz ancaq onlara təşəkkür edə bilərik ki, nəhayət, obyektiv yazı veriblər”.



**Bəxtiyar Sadıqov: “Amerikada da obyektiv yazan jurnalistlər var”**



**Zahid Oruc: “Görünür, bu nəşr Rusiyanı Azərbaycan kontekstində vurmaq istəyir”**

**İqtidaryönlü deputat Zahid Oruc hesab edir ki, dövlətlərin siyasətini qəzetlər üzərindən müəyyən etmək doğru deyil:** “Qərb aləmində söyləyirlər ki, qəzetlər müstəqildir. Ötən dövr ərzində onun şahidi olduq ki, əsas informasiya məkanını tutan artilleriya silahları müxtəlif siyasi mərkəzlərlə və xəfiyyə orqanları ilə harmonik işləyirlər. Bu gün bizi bu mətbuat orqanlarının müstəqil olmasına inandırmaq çox çətindir. Əlbəttə, onların planlaşdırmasını, yaxud mövzularının xüsusi xidmət orqanları tərəfindən müəyyən edildiyini demək ədalətsizlik olar. Bu, bir sovet yanaşması olardı. ”The Washington Times" qəzeti uzun müddət Azərbaycan əleyhinə xəbərlər verib ki, obyektivliyi ehtiva edən yazıları olanda, bir tərəfdən az qala bayram kimi yanaşmaq istəyirik, digər tərəfdən də səbəb axtarırıq. Ermənistan və Rusiyanı vurmaq üçün hansı tapşırıqlar verilib? Bu bizim xeyrimizədir, yoxsa əksinə? Burada ancaq anti-Rusiya konteksti seçilib. Bizi ABŞ-da düşünən də olmayıb. Şübhəm yoxdur ki, bu qəzetlərin beyin mərkəzlərində, institutlarında hazır məlumatlar var. Sifariş olanda ki, müxtəlif istiqamətləri vurmaq lazımdır, dərhal həmin materiallar çıxarılır və geniş istifadə olunur. Hər kəs bilir ki, Azərbaycanla Ermənistan müharibə vəziyyətindədir. Mövqeyimiz bütün KİV səhifələrində var. Hər kəs asanlıqla həmin məlumatları götürə bilər. Ukraynadan fərqli olaraq, bu məsələdə biz o qədər az şərhlər görürük ki, onların obyektivliyinə olan inamımız sarsılmış olur. Bu baxımdan Qərbin strateji maraqlarını söyləməyə məcbur oluruq".

**Zahid Oruc onu da qeyd etdi ki, ABŞ Rusiyanı Azərbaycana aid yazılarla vurmaq istəyir:** ""The Washington Times", görünür, Rusiyanı Azərbaycan kontekstində vurmaq istəyir. Bizləri inandırmaq üçün onlar göstərməlidir ki, ərazi bütövlüyü məsələsi qəzetlər üçün də əsas məsələdir. Onlar sadəcə informasiyaya kökləniblər. Hər bir medianın işi təşkil olunarkən, onların da müəyyən prinsipləri var. Qəzetlər üzərində obyektivlik, qərəzsiz münasibət kimi tanıtım məsələləri var. Ona görə də sevinmək fikrindən çox uzağam. Mediamız çox məmnunluqla onu dərc elədi. Ermənistan mediası da qarşılıq verdi. Ermənistan prezidentinin görüşü zamanı hansı səhvlərə yol verdiyi analiz edilir. Açıq şəkildə belə böyük media orqanları təsir altında olur. Bu mətbuat orqanlarından dövlət strukturlarına gizli yollar var. Bu baxımdan hazır tezislərlə bəlli orqanlar vurulur".

❑ **Cavanşir ABBASLI**

# Xoşqədəmin verilişinin məşhur ekspertindən maraqlı açıqlamalar

## Seymur Verdizadə: “Onun verilişi 5 ildə yüzdən çox ananı öz balasına qovuşdurub”



Seymur Verdizadə

**Xoşqədəm Hidayətqızının müəllifi olduğu “Səni axtarıram” verilişinin eksperti, tanınmış jurnalist Seymur Verdizadə Milli Teleradio Şurasının (MTRŞ) verilişin bağlanması ilə bağlı qərarının yanlış olduğunu bildirib. “Yeni Müsavat”a açıqlamasında Seymur Verdizadə deyib ki, minlərlə insanın ümid yerinə çevrilmiş bir verilişi bağlamaq həmin insanlara zərbədir.**

Bundan itirən Xoşqədəm Hidayətqızı yox, minlərlə çarəsiz sadə vətəndaşlar olacaq: “Bu veriliş ötən beş ildə Azərbaycan teleməkanının ən reytinqli proqramı olub. Zəngin həyat təcrübəsinə malik olan tanınmış ziyalılar, millət vəkilləri, sənət adamları Xoşqədəm Hidayətqızının yaratdığı bu tribunadan həmişə səmərəli istifadə ediblər. Milli-mənəvi dəyərləri təbliğ etmək, mütərəqqi ideyaları yaymaq bizim başlıca amalımız olub. Əgər MTRŞ-nin verilişin müvəqqəti dayandırılması ilə bağlı məlum qərarı olmasaydı, biz bu müqəddəs missiyanı ANS-də yenə davam etdirəcəkdik.

Xoşqədəm Hidayətqızı “Səni axtarıram” verilişinin dəyərli ekspertlərini bayağı şounun simvolu olan adamlarla yanaşı oturtmağı nə özünə, nə də bizə rəva bilib. Xoşqədəm xanımın müəllifi olduğu verilişin qonağı Azərbaycanın tanınmış elm və mədəniyyət xadimləri, millət vəkilləri, sevilən sənət adamları olub. Mən Rəşid müəllimi Azərbaycan xalqı üçün qənimət hesab edirəm. O, 52 ildir ki, Azərbaycan Dövlət Tibb Universiteti kimi qocaman təhsil ocağında müəllim işləyir. Gəlin, gecə demirəm, gündüz əlimizdə çıraq Azərbaycanı qarış-qarış dolaşaq. Əgər Tibb Universitetinin ölkəmizin dörd bir tərəfinə səpələnmiş məzunlarından biri onun haqqında pis söz danışsa, qələmimi qırıb, Xəzərin neft qoxan sularına atacam. Baba Vəziroğlu haqda isə bircə onu demək istəyirəm ki, Azərbaycan dövləti bu şəxsin əməyini yüksək qiymətləndirərək, bir neçə il əvvəl onu “Əməkdar incəsənət xadimi” adı ilə təltif edib".

**“Deyirlər ki, Xoşqədəm Hidayətqızı Rusiyada, Ukraynada səfil həyatı yaşayan soydaşlarımızı tapıb üzə çıxarmaqla Azərbaycanın imicini zədələyir...”**

**S.Verdizadə bildirdi ki, Xoşqədəm Hidayətqızının bu verilişi 5 ildə yüzdən çox ananı öz balasına qovuşdurub. Bu cür böyük missiyanın qarşısına sədd çəkilməsi heç cür anlaşılan deyil:** “Deyirlər ki, Xoşqədəm Hidayətqızı Rusiyada, Ukraynada səfil həyatı yaşayan soydaşlarımızı tapıb üzə çıxarmaqla Azərbaycanın imicini zədələyir. Bu, həmin Xoşqədəm xanımdır ki, ötən beş ildə yüzdən çox ananı doğma balasına qovuşdurub. Rusiyada səfil həyatı keçirən azərbaycanlıları vətənə gətirmək onların ömrünü uzatmağa xidmət edir. Bu adamların ömrünü Rusiyada başa vurub, xristian adət-ənənəsi ilə kimsəsizlər qəbiristanlığında dəfn olunması kimə başucalığı gətirəcək?

Mən də Azərbaycan telekanallarında intellektual verilişlərin sayının artmasının, maraqlı müzakirələrin aparılmasının tərəfdarıyam. Çünki əsl həqiqət məhz bu cür müzakirələr nəticəsində üzə çıxır. Amma televiziyalar üzərində sərt nəzarət mexanizmi tətbiq edən adamların bu həqiqəti dinləməyə hazır olub-olmadığını bilmirəm".

**Seymur Verdizadə “Səni axtarıram” verilişinin şəxsən onu bütün ölkə ictimaiyyətinə tanıtdığı barədə deyilənlərə də münasibət bildirdi:** “Mən ”Səni axtarıram" verilişinə ekspert kimi dəvət olunduğum zamana qədər artıq 15 ilik jurnalist təcrübəm var idi. Bir sıra məşhur qəzetlərdə redaktor işlədiyim üçün cəmiyyətin aktiv kəsimi məni tanıyırdı. “Səni axtarıram” verilişində ekspert kimi iştirakım-efir isə məni sadə insanlara tanıtdı. İctimai nəqliyyatdan istifadə edən insanam. Sadə insanların məni tanıdıqlarını hər gün müşahidə edirəm. Bəzən yaxınlaşıb təşəkkür edənlər, problemlərini dilə gətirənlər olur. Amma inanın ki, bu veriliş haqqında bir kimsənin etirazına rast gəlməmişəm.

Onu da deyim ki, mənim üçün efir ikinci planda olub. Həftədə 15 saat canlı efirdə olsam da jurnalist kimi qələmi əldən yerə qoymamışam, media orqanlarında intensiv yazılarla çıxış etmişəm. Bundan sonra da əsas fəaliyyətim jurnalistika ilə bağlı olacaq. Heç vaxt xüsusi olaraq televiziyada görünmək və məşhurlaşmaq iddiam olmayıb".

❑ **E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 222 (6250) 8 oktyabr 2015

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# “Azərbaycan Qarabağın azadlığı qarşılığında Avrasiya İttifaqına girə bilər”

## Qüdrət Həsənquliyev: “İlk variant alınmasa, Azərbaycan hərb variantını seçməlidir”

**Rusiyanın Azərbaycanı Avrasiya İqtisadi Birliyinə və Gömrük İttifaqına qoşmaq planları ciddiləşir. Üstəlik, şimal qonşumuz sülhməramlı qismində öz qoşunlarını da Qarabağa yeritmək istəyir. Bu vəziyyətin Ermənistanın işğalçılıq niyyətinin davamlılığına xidmət edəcəyini deyənlərlə yanaşı, Rusiyanın təklifinə Azərbaycanın alternativlərindən biri kimi yanaşanlar da var.**

*Hələ ötən illərdə Qarabağın azadlığının qarşılığında Azərbaycanın Avrasiya Birliyinə, həmçinin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) üzv olmasını mümkün sayan BAXCP sədri, deputat Qüdrət Həsənquliyevlə bu mövzuda söhbət etdik. Yeri gəlmişkən, Q.Həsənquliyev payız sessiyasında Qarabağ dinləmələrinin keçirilməsini də təklif edib.*

**- Qüdrət bəy, Rusiyanın Azərbaycanla bağlı planları artıq beynəlxalq miqyasda müzakirə olunur. NATO Parlament Assambleyasındakı Azərbaycan nümayəndə heyətinə daxil olan deputat kimi sizdə durumla bağlı məlumatlar nədən ibarətdir? “Sülhməramlı” adı ilə rus qoşunu Azərbaycana yeridilə bilərmi?**

- Mən 10 ildən artıqdır ki, NATO Parlament Assambleyasındayam, ondan əvvəl də kifayət qədər imkanım olub ki, xarici diplomatlarla görüşüm, həmçinin mətbuatı izləyim. Sözün doğrusu, mən əvvəllər, hələ bu mövzuda kimsənin danışmağa cəsarət etmədiyi bir dövrdə - çünki hamı bilirdi bu işğalın arxasında Rusiya dayanır, ona görə də Moskvanın “gəlin bu problemi çözək” fikrinə bir aqressiv münasibət var idi - məndə tam bir qənaət formalaşmışdı ki, Qarabağ məsələsində Qərbdən ədalətli mövqe gözləməyə dəyməz. Çünki onların rəğbəti Ermənistan tərəfindədir. Bəlkə də biz xristian dövləti olsaydıq, iki xristian dövləti arasında bir ədalətli mövqe sərgiləməyə çalışardılar. Amma müsəlman ölkəsiyik və Qərbdə də son illər islamofobiya xeyli güclənib. Ona görə də bizə digər postsovet respublikalarındakı münaqişələrdən fərqli münasibət var. Əgər məsələni sülh yolu ilə həll etmək istəyiriksə, onda Ermənistanla yox, məhz Rusiyaya ilə masa arxasında oturub danışmalıyıq. Yaranmış tarixi şəraitdə bu, mümkündür.

**- Amma elə bugünlərdə Rusiyanın yaratdığı KTMT Ermənistanda təlimlər keçirdi və Azərbaycanı təhdid edən mesajlar verildi...**

- Elə ona görə də birbaşa Rusiya ilə danışmaq lazımdır. Azərbaycanın torpaqlarını hərb yolu ilə azad etməsi məsələsi bir az risklidir. Amma buna baxmayaraq, mən bunu da mümkün sayıram. Əgər Rusiya ilə danışıqlar baş tutmasa, Azərbaycan hətta o riskli addımı da atmalıdır. Ona görə ki, torpaqlar uzun illərdir işğal altındadır. İkincisi də ingilislərin bir sözü var ki, “Ehtiyatlılığı yelə ver, sən ciddi nəticələr istəyirsənsə, böyük risklərə getməlisən”. Hesab ediriksə ki, heç bir risk etmədən gedib torpaqlarımızı azad edəcəyik, bu, sadəcə olaraq illüziyadır, özünü aldatmaqdır. Ona görə də hətta mən razıyam ki, Azərbaycanın müəyyən məsələlərdə suveren hüquqları məhdudlaşsın, nəinki biz öz torpaqlarımızı itirək. Biz Qarabağ naminə KTMT-yə də üzv ola bilərik. Mərhum Heydər Əliyevin dövründə, 1994-99-cu illərdə bu qurumun üzvü olduq, məgər onda Azərbaycan müstəqil deyildi? Onda da Qərb bizi aldatdı, GUAM yaratdıq və sonra bəlli oldu ki, GUAM da səmərəsiz qurumdur. Qərb də bizə heç bir ciddi dəstək vermədi, GUAM-ın normal regional fəaliyyəti üçün də addım atmadı. Ona görə də Azərbaycan Rusiya ilə dil tapa bilər. Rusiya marağındadır ki, Cənubi Qafqazın açar ölkəsi olan, strateji bir ölkə kimi Azərbaycanla razılığa gəlsin.

**- Rusiya Qarabağ məsələsinin həllini istəyirmi?**

- Bizim tam müstəqil siyasət yürütməyimiz hazırda Rusiyanın bəzi dairələrini qıcıqlandırır ki, niyə Azərbaycan onlarla bərabərhüquqlu tərəf kimi danışır. Əlbəttə, Rusiya Qarabağ məsələsini saxlamaqla hər iki respublikanı özündən asılı vəziyyətə salıb. İndi də Ukraynanı özündən asılı saxlamaq üçün Donbasda oxşar problem yaradır. Biz də görürük ki, Qərb çox acizdir. Qərb Azərbaycandan fərqli olaraq Ukraynanın ərazi bütövlüyünə qarant durmuşdu. Ancaq BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan nüvə dövlətlərinin qarant durduğu və əhalisinin sayı 44 milyona çatan, böyük sənaye kompleksinə malik, hərbiləşmiş bir xalq bu gün Rusiyanın qarşısında çox aciz bir durumdadır. Belə olan halda Azərbaycanı Ukrayna ilə müqayisə edin və durumumuzu təsəvvür edin. Ona görə də çalışıb Rusiya ilə dil tapmaq lazımdır. Biz Rusiya ilə danışmalıyıq. Azərbaycan enerjidaşıyıcıları ilə bağlı Moskva ilə anlaşa bilər.

**- İlk öncə hansı tərəf addım atmalıdır, öncə torpaqlar azad olunmalıdır, yoxsa Bakı qərarını verməlidir?**

- Bəzi adamlar mətbuatda deyir ki, Avrasiya İttifaqına girsək, Rusiya onsuz da Qarabağ problemini həll etməyəcək. Axı kimdir problem həll olunmamış Avrasiya İttifaqına girən? Söhbət ondan gedir ki, Qarabağın azadlığının qarşılığında Azərbaycan Avrasiya İttifaqına girir. Əgər Rusiya bu istiqamətdə addım atmayacaqsa, kimdir Avrasiya İttifaqına girən? Bəzi partiya sədrləri özlərini “vətənpərvər” kimi göstərib müstəqilliyə təhlükə barədə danışırlar. Bəs sən nə alternativ təklif edirsən? Hətta Rusiya “sülhməramlıları”nın daxil olmasına da baxmaq olar. Amma sülh sazişi imzalanacaq, Ermənistan qəbul edəcək ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Biz də Qarabağ ermənilərinə dünyada mövcud olan ən geniş muxtariyyəti verəcəyik, qoy eybi yoxdur, rus sülhməramlıları onları orda qorusun. Amma o torpaqlar Azərbaycanın ərazisi kimi Rusiya və Ermənistanın imzası ilə təsdiqlənəcək. Mən əminəm ki, gələcəkdə də iqtisadi cəhətdən güclü olan Azərbaycan ayrılmaz parçası olan Dağlıq Qarabağa ciddi yatırımlar qoyacaq. Bu, indiki şərtlər altında ən uğurlu variantdır.

**- Bəs antierror əməliyyatı və ya hərbi əməliyyatları necə, tam istisna edirsiniz?**



**“Məsələni sülh yolu ilə həll etmək istəyiriksə, Ermənistanla yox, Rusiya ilə danışmalıyıq...”**

- Əlbəttə, bizim gücümüz olsaydı... Necə ki, Rusiya Çeçenistan üzərində öz suveren hüquqlarını bərpa etdi, biz də bunu edə bilsəydik, çox yaxşı olardı. Yəni bu variant bizim üçün əla variant idi. Amma indiki şərtlər altında bunu etmək həddən artıq risklidir. Ona görə də biz ilk variant kimi Rusiya ilə danışmağa çalışmalıyıq. Amma alınmasa, Azərbaycan hərb variantını seçməlidir. Azərbaycan nə qədər böyük hərbi potensiala malik olursa-olsun, gözümüzün önünə gətirməliyik ki, biz yeri gəlsə, Rusiya ilə vuruşmalı olacağıq. Rusiyanın davranışları bunu göstərir.

**- Ermənistandakı bazası müdaxilə edə bilər?**

- Təkcə Ermənistandakı bazası yox. Rusiya öz ərazisindən də ölkəmizə hava zərbələri endirə, yaxud qurudan əsgər yeridə bilər.

**- Bəs Türkiyənin hərbi köməyinə arxalana bilərikmi?**

- Tamamilə istisna olunur. Hətta Rusiyanın ən zəif dövründə belə, Türkiyə cəsarət edib Azərbaycana Kəlbəcər sakinlərini çıxartmaq üçün iki mülki vertolyot vermədi. Elçibəy həmişə bunu ürək ağrısı ilə deyirdi, bunu indi xatırlayanda mənim də ürəyim ağrıyır. Ona görə də Türkiyədən artıq şey gözləməyə dəyməz. Türkiyənin özünün də ciddi problemləri var. Həm də Türkiyənin Azərbaycana görə Rusiya ilə konfliktə gedəcəyini düşünmək sadəlöhvlükdür. Çünki Ankara da gözəl başa düşür ki, Rusiya nüvə dövlətidir. Ona görə də Türkiyə nüvə dövlətinə çevrilməlidir. O günə qədər Türkiyə heç vaxt regional güc ola bilməyəcək, mən bunu hər zaman deyirəm.

**- Azərbaycan öz ərazisində antiterror əməliyyatına başlasa, yenədəmi Rusiya müdaxilə edəcək?**

- Bu barədə iddialar cəfəngiyatdır. Bordyujanın, rus generallarının, səfirlərinin açıqlamaları onu göstərir ki, təhlükə realdır. Yadınızdadırsa, 2008-ci il Gürcüstan hadisələri zamanı da Rusiya rəsmiləri “başqaları da bundan ibrət dərsi götürməlidir” deyirdilər. Açıq şəkildə Azərbaycana mesajlar verilib. Ona görə də deyirəm ki, əgər hərbi əməliyyatlar keçirəcəyiksə, bu, Rusiya ilə razılaşdırılmalıdır. Əgər Ermənistan ipə-sapa yatmaza, biz Rusiyanın razılığı ilə tutaq ki, Dağlıq Qarabağ ətrafındakı rayonları azad edirik və Ermənistan sülhə imza atmağa məcbur olur.

**- Rusiya ərazilərimizin azad olunmasını istəyərmi?**

- Azərbaycan regionda çox önəmli bir ölkədir, həm iqtisadi, hərbi gücünə, resurslarına, həm coğrafi mövqeyinə görə. Ona görə də, məncə, Rusiya ilə anlaşmaq olar, nəinki Qərbdən kömək gözləmək... Görün, Qərbdə nə qədər hakimiyyətlər dəyişib, amma Qərbin mövqeyi dəyişməyib. Ona görə də Azərbaycan mütləq Rusiya ilə danışmalı və Moskvanın bu məsələni həll etməsinə çalışmalıdır. Bunun üçün KTMT-yə də üzv ola bilərik, Gömrük İttifaqına da. Həmçinin Azərbaycan Rusiyanın Azərbaycanda hərbi baza yaratmasına icazə verə bilər. Eyni zamanda Azərbaycanın enerjidaşıyıcıları ilə bağlı razılaşmanın əldə olunması da mümkündür.

**- Parlamentdə sizin təklifinizdən sonra Qarabağ dinləmələri keçirilərsə, siz orda da bu təklifləri səsləndirəcəksiniz?**

- Bəli, mən dinləmələrin keçirilməsini istəyirəm. Mən demişəm ki, dinləmələrdə aparıcı KİV rəhbərləri, təhlükəsizlik məsələləri ilə məşğul olan QHT-lər, ölkənin tanınmış ziyalılarının iştirakı ilə Qarabağ müzakirələri keçirilsin. Bu, hətta dünyaya mesaj olacaq ki, Azərbaycan işğalla barışmır, həll yolları axtarır və bütün ümidləri tükənmiş xalq bir gün hökumətdən tələb edəcək ki, torpaqları azad elə. Deməli, müharibə qaçılmazdır. Biz oturub gözləyə bilmərik ki, Rusiya nə vaxt dağılacaq. Rusiyanın ən zəif dönəmində belə, biz problemi həll edə bilməmişik - o dövrdə Qərbin parlaq liderinin olmaması səbəbindən. Qərb uzaqgörən olmaması səbəbindən qorxdu ki, SSRİ dağılıb və Rusiya da dağılsa, əlavə 20 dövlət yaranacaq. Rusiya isə məhz Qərbin köməyi ilə Çeçenistanı darmadağın etdi və milli azadlıq hərəkatını boğdu. Amma Rusiya bir az güclənən kimi Qərbin özünün burnunun üstündən vurdu. Ona görə də nəzərə almalıyıq ki, Qərb bizdən çox uzaqdır, amma Rusiya qonşuluğumuzdadır və əhalisinin sayına, ərazisinə görə böyük, üstəlik, nüvə dövlətidir. Azərbaycan bu ölkə ilə öz siyasətini daha ehtiyatla qurmalıdır. Onu da nəzərə almalıyıq ki, bizim düşmənlərimiz Qərbdə dəstəklənir, orada böyük erməni diasporu var. Gördünüz ki, BMT-də Ermənistan Ukraynanın ərazi bütövlüyünə səs vermədi, amma ona güldən ağır söz deyən olmadı. Hətta Qərb Rusiyaya Ermənistanı qoruduğu üçün “sağ ol” deyir. Türkiyə də həm Qərbdən asılıdır, NATO dövlətidir, həm də Rusiya ilə üz-üzə gəlməmək üçün bu münaqişəyə qatılmayacaq. Hələ biz Türkiyədən öz pulumuza, dünya bazar qiymətlərinə silah ala biliriksə, bunun özü böyük hadisədir. Türkiyənin Ermənistanla sərhədləri açması müzakirələri, futbol diplomatiyası da yadımızdan çıxmayıb. Bu acı reallıqları nəzərə almalıyıq və xalqla açıq danışmalıyıq...

Türk qardaşlarımız da deyir ki, bizdən artıq heç nə gözləməyin. Bugünlərdə bizim yüksək çinli diplomatlardan biri mənə maraqlı bir hadisəni danışdı. Dedi ki, rəhmətlik Heydər Əliyev prezident Əhməd Necdət Sezərlə görüşəndə deyib mən onu yoxlayacağam. Görüşüb-öpüşəndən sonra oturan kimi Heydər Əliyev başlayıb ki, regionda güvənəcəyimiz yeganə dövlətsiniz. Ancaq illər keçir, Qarabağ işğalda qalıb, xalq da bizdən torpaqları azad etməyi tələb edir. Sezər ardınca nə deyəcəyini başa düşüb və dərhal prezidentin sözünü ağzında kəsib, qayıdıb ki, “sayın Heydər bəy, bilirsiniz ki, biz NATO üzvü olan ölkəyik, onların icazəsi olmadan sizə bir qurşun da verə bilmərik”. Ona görə də bizim Türkiyədən ciddi dəstək gözləməyimizə dəyməz, bu reallığı qəbul etməliyik. Türkiyə bizim qardaşımızdır, ancaq qardaşımızın da gücü, imkanı nəyə çatır, bunu bilirik. Bilməliyik ki, Türkiyə hara qədər bizə dəstək verə bilər...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

Yeni MÜSAVAT
N 222 (6250) 8 oktyabr 2015

# ANS və Nuşirəvan davası - televiziyaya bağlanmaq təhdidi var

## Nuşirəvan Məhərrəmlinin telekanalın ünvanına ağır sözlər deməsinin və onu təhdid etməsinin səbəbi nədir?; **MTRŞ sədrindən təhlükəli anons:** "Yeri gələrsə, bütövlükdə televiziya kanallarından xilas olacağıq"

**Sentyabrın 30-da Milli Teleradio Şurasında keçirilən iclas Azərbaycan teleməkanı üçün ciddi proseslərin başlanğıc nöqtəsi oldu. Həmin iclasda ilk olaraq ANS televiziyası tərəfindən "Televiziya və radio yayımı haqqında" Qanunun tələblərinin pozulması faktı üzrə inzibati icraata baxıldı.**

Nəticə etibarilə ANS televiziyasının efirində həftə ərzində şənbə və bazar günləri istisna olmaqla, 1-5-ci günlər *(bazar ertəsi-cümə günləri)*, saat 16.20-dən 19.00-dək yayımlanan "Sən tək deyilsən" proqramının, hər həftənin bazar günü saat 21:30-dan 24:00-dək yayımlanan "Xoşqədəmlə axtarıram səni" proqramının yayımının 05 oktyabr 2015-ci il tarixdən etibarən 1 (bir) ay müddətinə dayandırılması barədə qərar qəbul edildi. Amma proses bununla da yekunlaşmadı. Oktyabrın 5-də MTRŞ-nin keçirdiyi iclas zamanı ANS televiziyası tərəfindən "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin pozulması faktı üzrə inzibati icraata və inzibati xətalara dair iş üzrə icraata baxıldı. Müzakirələrin nəticəsi olaraq ANS televiziyasının efirində həftə ərzində bazar günü istisna olmaqla, 1-5-ci günlər (bazar ertəsi-cümə günləri), saat 07:00-dan - 10:00-dək, şənbə günü 08:00-dan 10:00-dək yayımlanan "Salam, Azərbaycan" proqramının yayımının 06 oktyabr 2015-ci il tarixindən etibarən 10 (on) gün müddətinə dayandırılması barədə qərar qəbul edildi.

Telekanala eyni zamanda ciddi maddi zərbələr də vuruldu. Qurum "Reklam haqqında" Azərbaycan Respublikası Qanununa əsasən, telekanal barədə ümumilikdə 54 000 (əlli dörd min) AZN məbləğində cərimə cəzası tətbiq edilməsi barədə qərar qəbul edib.

**Ciddi sanksiyaların və maliyyə zərbələrinin ardınca isə MTRŞ sədri Nuşirəvan Məhərrəmli APA-ya verdiyi müsahibə bir çox ciddi mətləblərin üstünü açdı. N.Məhərrəmli müsahibəsində bildirib ki, 5 il bundan qabaq da "Ümid var", "Adam içində" tipli verilişlərə müəyyən tövsiyələr verilib, xəbərdarlıqlar edilib:** "Amma çox təəssüf ki, onlar həmin verilişlərin adını dəyişdirib başqa ad altında fəaliyyət göstərdilər. Cəmiyyət isə bizdən bu tip verilişlərə, ümumiyyətlə, özəl telekanallarda yayımlanan bayağı verilişlərə qarşı mübarizə aparmağı tələb edir. Lakin MTRŞ-nin səlahiyyətləri o dərəcədə deyildi ki, həmin verilişləri bağlasın. "Televiziya və radio yayımı haqqında" Qanuna bu ilin fevral ayında dəyişiklik oldu və həmin dəyişikliklə MTRŞ-yə "Televiziya və radio yayımı haqqında" Qanunun pozulmasına görə həm verilişlərin, həm kanalların fəaliyyətini dayandırmaq səlahiyyətləri verildi. Fevral ayında qəbul olunmuş dəyişikliklər hüquqi qüvvəsini sentyabr ayının 16-da MTRŞ haqqında Əsasnaməyə dəyişikliklər oldu və biz sentyabrın 16-dan sonra bu sahədə ciddi işə başladıq. Bundan qabaq isə televiziya kanallarının rəhbərləri ilə ciddi söhbətimiz oldu və biz efirdəki nöqsanların aradan qaldırılmasını onlardan tələb etdik. Bizim verdiyimiz qərar tək ANS telekanalına aid deyil. Bu bütün televiziya kanallarına aiddir".

**N.Məhərrəmli müsahibəsində bildirib ki, hazırda Azərbaycanın özəl televiziya kanalları demək olar ki, cəmiyyət üçün ən aşağı növ verilişlər hazırlayır və bu sahədə bir-biri ilə rəqabətə girirlər. MTRŞ sədri bu məqamda ANS-i digər kanallardan fərqləndirərək, daha ağır sözlər səsləndirib:** "Çox təəssüf ki, ANS kanalı digər kanallardan fərqli olaraq 90-cı illərin ab-havası ilə yaşayır. Sanki onların etdikləri hər şey doğrudur. Heç kim onlara bir söz deyə bilməz. Bilirsiniz, dünənə qədər etdiyin işə görə sağ ol. Amma bu gün gördüyün işə görə cavab ver. Bəli, 90-cı illərin əvvəllərində ANS yeganə özəl kanal idi. O vaxt başqa özəl kanal yox idi. Azərbaycan həqiqətləri ilə bağlı dövlət televiziyasına nisbətən alternativ fikirlər yayımlayırdı. O dövr bu kanal üçün böyük imkanlar yaratmışdı və o kanala yaranmış imkanlardan bu kanal böyüdü. Bəli, Qarabağ həqiqətlərinin dünyaya çatdırılmasında ANS kanalının xidmətləri var. Amma eyni zamanda ANS Azərbaycan efirinə ilk dəfə pornoqrafik film gətirən, ilk ən aşağı səviyyəli yumoristik verilişlər verən, efirində ən ədəbsiz ifadələr işlədilən, cinsi azlıqların həyat tərzini adi bir iş kimi göstərən bir kanaldır. Hər ikisi bunda var. Biz görülən işlərə "sağ ol" deyirik, amma bu gün bu nöqsanlar varsa, o nöqsanlara görə cavab verməlisən".


Nuşirəvan Məhərrəmli


Mirşahin Ağayev


Mais Məmmədov

**ANS-dən cavab gecikmədi: "ANS-i barmaqla hədələyib "bağlayaram haa" demək, şükür Allaha, ondan asılı deyil"**

**Telekanala qarşı cərimələrin çoxluğuna gəlincə, N.Məhərrəmli bildirib ki, cərimələr əsasən sponsorla bağlı reklam tələblərinin pozulmasına görə verilib. Daha öncəki illər telekanaldakı verilişləri bağlatmaq səlahiyyəti olmayan MTRŞ-nin əlində hazırda bu imkanların olması isə qurumun gücünü artırıb:** "MTRŞ indiyə qədər televiziya kanallarına böyük güzəşt edirdi. Amma bizim səlahiyyətlərimiz o verilişləri qapatmağa imkan vermirdi. Biz verilişləri bağlada bilmirdik. Bəli, indi isə şuraya bağlamaq səlahiyyəti verilib. Bilirsiniz, efir heç bir televiziya kanalının rəhbərinin şəxsi mülkiyyəti deyil. Efirin dövlət mülkiyyətində olmasını başa düşməlidirlər. Oranın binası, maşın və avadanlıqlar onların mülkiyyəti ola bilər, amma efir heç kəsin mülkiyyəti deyil. Oradan başqalarına qarşı qərəzli şəkildə xüsusi kampaniya aparılarsa, o zaman telekanala qarşı çox ağır şəkildə cəza tədbiri görüləcək".

**N.Məhərrəmli ANS-in vitse-prezidenti Mirşahin Ağayevin bu nöqsanlar qarşısında səsləndirdiyi arqumentlərə də toxunub:** "Birinci iclasda bizim arqumentlərimizin bəziləri ilə razılaşdığı və razılaşmadığı məqamlar oldu. O, bunu televiziya işi ilə bağlayır, deyir ki, burda şou yaratmaq üçün bunlar lazımdır, bunlar olmasa şou olmaz. Bildirir ki, söz oynatmaq, saxta ssenarilər, ciddi məsələlərin qeyri-ciddiyə çevrilməsi, yumoristik səhnəciklər - bunların hamısı lazımdır. Amma çox təəssüf ki, buradan çıxanda başqa formada ifadələr işlədir və ona uyğun olaraq da bizim adekvat cavablarımız olur. Mirşahin şuranın sonuncu iclasında da dedi ki, mən lazım olanda muma dönürəm, lazım olanda aslana dönürəm. Bu onun öz sözüdür".

**MTRŞ sədri eyni zamanda baş verənlərin ANS-lə rəhbərlik etdiyi qurum arasında olan məsələ kimi qələmə verilməsinin də yanlış olduğunu dedi:** "Bu onların stilidir. Hər hansı bir məsələni onlara qarşı kampaniya kimi qəbul edirlər. Burda hər hansı kampaniya yoxdur. Tam səmimiyyətlə deyirəm, burada hər hansı qərəzdən söhbət gedə bilməz. Sadəcə, Azərbaycan efirində küçə mədəniyyəti, küçə tərbiyəsi, küçə psixologiyasında verilişlərin verilməsi onlara haqq qazandırmır".

**Müsahibədə N.Məhərrəmli telekanalların gələcək fəaliyyəti ilə bağlı maraqlı siqnallar da verib:** "Lazım gələcəksə, biz o tip verilişlərdən də xilas olacağıq. Hətta yeri gələrsə, bütövlükdə televiziya kanallarından xilas olacağıq. Azərbaycanda qoy 10 televiziya kanalı olmasın, 6 və ya 7 televiziya kanalı olsun. Amma televiziya kanallarında Azərbaycanı təmsil edən gözəl verilişlər olsun. Azərbaycan efirindəki verilişlərə görə biz hər gün uduzuruq".

"Nuşirəvan Məhərrəmli nə deyibsə, hamısı yalandır. Nəyə görə? Prinsipcə baxanda ANS televiziyası birinci yerdə durur. Bilmirəm, Nuşirəvan buna baxır, ya baxmır. Ümumiyyətlə, o, jurnalist deyil, xüsusilə televiziya sahəsində. Prezident İlham Əliyev çıxışlarının birində dedi ki, ay məmurlar, camaatı incitməyin. Bu da təsadüfi adamdır. Mən onu jurnalist kimi saymıram. O, senzuraçı məmurdur. Mən onun yerində olsaydım, bir dəfə ANS-ə gəlib soruşardım, nə var, nə yox, nə işlə məşğulsunuz?!"

Bunu cebhe.info-ya açıqlamasında **"ANS" Şirkətlər Qrupu prezidentinin media üzrə müşaviri Mais Məmmədov** Milli Televiziya və Radio Şurasının sədri Nuşirəvan Məhərrəmlinin telekanal haqqında səsləndirdiyi fikirlərə münasibət bildirərkən deyib.

**Mais Məmmədovun sözlərinə görə, MTRŞ sədri bütün telekanalların bir-birinə bənzəməsini istəyir:** "O, çox şey deyə bilər. Onun istəyi budur ki, bütün telekanallar bir-birinə oxşasın. Bu, düzgün deyil. Onun televiziyadan anlayışı yoxdur. Bunu əməkdar jurnalist Mais Məmmədov deyir. 78 yaşım var, jurnalistikanı əzbər bilirəm. O isə təsadüfi adamdır, gəlib nə istəyir deyir, nə istəyir əmr edir. Nuşirəvan Məhərrəmli Azərbaycan televiziyasına nə verəcək, mən bilmirəm. ANS nələr etməyib? Sözün əsl mənasında vuruşub. Ancaq Nuşirəvan nə edib? Əmr verib, bir də cərimə. ANS-i barmaqla hədələyib "bağlayaram haa" demək, şükür Allaha, ondan asılı deyil. Nuşirəvan Məhərrəmli Moskvada təhsil alanda, ANS-in rəhbəri cəbhədə vuruşurdu. Çoxu qayıtmadı cəbhədən. Oxuduğun vaxt bir semestr akademik məzuniyyət götürüb gəlib cəbhədə vuruşardı. Bunun üçün vətənpərvərlik lazımdır".

ANS Teleradio Şirkəti Milli Televiziya və Radio Şurasını (MTRŞ) məhkəməyə verib. Şirkət MTRŞ tərəfindən verilən qərarların qanunsuz hesab edilməsi barədə iddia tələbi ilə 1 saylı Bakı İnzibati-İqtisad Məhkəməsinə müraciət edib. Məhkəmənin birinci iclası oktyabrın 9-na təyin edilib. İşə hakim Müseyib Bayramovun sədrliyi ilə baxılacaq.

Bütün hallarda N.Məhərrəmlinin məlum müsahibəsi və ANS-ə qarşı atılan addımlar ciddi mətləblərdən xəbər verir. 2018-ci ilə qədər ölkədə azad söz adına bütün pəncərələrin qapadılacağı planı da bu versiyalardan sadəcə biridir. Hazırda ANS-in aparıcı fiqurlarından İlqar Mikayıloğlu, Azər Axşam və Aytən Səfərovanın qısa fasilələrlə ANS-i tərk edərək ATV-yə transfer olunması da təsadüfi deyil. Bu, ANS-in daxildən parçalanması kimi də qiymətləndirilə bilər.

Amma kanalın hansı səbəbdən "nişangah"a gəlməsi sual doğuran məqamlardandır. Versiyalardan biri kimi ANS-in cəzalanmasını onun efirində Şirməmməd Hüseynovun "Heydər Əliyev dövlətin yox, hakimiyyətin banisidir", deməsi də səslənir. Xatırladırıq ki, ANS rəhbərliyi dövlət başçısı ilə münasibətləri sıcaq tutmaq üçün bir neçə dəfə cəhdlər göstərib. Lakin ANS-çilərə qarşı bu münasibətin səbəbləri hələlik sual olaraq qalır.

**"ANS Azərbaycan efirinə ilk dəfə pornoqrafik film gətirən, ilk ən aşağı səviyyəli yumoristik verilişlər verən, efirində ən ədəbsiz ifadələr işlədilən, cinsi azlıqların həyat tərzini adi bir iş kimi göstərən bir kanaldır"**

❑ **Sevinc TELMANQIZI, musavat.com**

**Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Azad Məcidovun sədrliyi ilə mənimsəmə və dələduzluqda təqsirləndirilən Araz Eyvazovun cinayət işi üzrə məhkəmə prosesi davam edir. İttiham aktına görə A.Eyvazov "Şərur" tikinti şirkətinin rəhbəri, "Şərurlu İsfəndiyar" kimi tanına İsfəndiyar Axundovun qardaşı oğlu Eldəniz Axundovdan, Şərurun keçmiş icra başçısı Rəfael Rəsulovdan, Polis Akademiyasının keçmiş rəisi, general-mayor Ramiz Nağıyevin oğlu Tağı Nağıyev və MTN işçisi kimi təqdim olunan Emin adlı şəxslərdən ümumilikdə 3 milyon 600 min manat alıb.**

# Şərurun keçmiş icra başçısı biznesmeni küçənin ortasında döyüb

## "Şərurlu İsfəndiyar"ın qardaşı oğlu, icra başçısı və general 3 milyon 600 min dollar faizə verdikləri pulu geri ala bilmirlər

Alınan pullara görə, A.Eyvazov faizləri ödəyib. Pulun böyük hissəsi - 2 milyon 770 min manat E.Axundovdan alınıb. İttiham aktında yer alan sənədlərdən belə aydın olur ki, pullar A.Eyvazova hər hansı bir sənəd tərtib olunmadan verilib. Pulun faizlərinin verilməsində problemlər yaranandan sonra borc müqavilələri bağlanıb. Belə bir halda borca görə A.Eyvazovu dələduz kimi məhkəmə qarşısına çıxarılması sual doğurur...

Məlumat üçün qeyd edək ki, Araz Eyvazov restoran biznesi ilə məşğul olub. A.Eyvazov borc aldığı şəxslərə faizləri verə bilməyəndə aralarında ciddi narazılıq yaranıb. 2013-cü ilin noyabrında Rafael Rəsulov, oğlu Orxan Rəsulov və Tağı Nağıyev Xətai rayonunda yerləşən "Optimal" servisin qarşısında Araz Eyvazovla görüşüblər. Görüş zamanı icra başçısı Rafael Rəsulov onu döyüb. Pulu qaytarmayacağı halda əlindəki bıçaqla öldürəcəyini, ailə üzvləri ilə haqq-hesab çəkəcəklərini deyib. Bu yolla ondan borc və faizləri ilə birgə 720 min dollar tələb ediblər. Məsələ Xətai Prokurorluğunda araşdırılıb, hədə-qorxu, şantajla tələb etmə maddəsi ilə cinayət işi başlanaraq araşdırılması üçün rayon polis idarəsinə göndərilib.

İstintaq zamanı hər 3 şəxs A.Eyvazovun ailəsini təhdid etməyəcəkləri haqda iltizam veriblər...

**Dünənki proses də şahid ifadələri ilə davam etdirilib. Avropa İqtisadiyyat Məhkəməsinin hakimi, Azərbaycanda hüquqşünas kimi xidmət göstərən Rasim Orucov ifadəsində qeyd edib ki, zərərçəkmiş Eldəniz Axundovla 2013-cü ildən işləməyə başlayıb:** "Araz müəllimi yaxşı tanıyıram. Dəfələrlə görüşmüşük. Bilirdim ki, Araz müəllim Azərbaycana çox tələbatlı mallar gətirir, biznesmendir. Bizi Eldəniz müəllim tanış edib. Onu da bilirdim ki, Araz Eldənizdən külli miqdarda - 2 milyon manata yaxın pul almışdı. Pulu qaytaracağını bilirdik. Eldəniz müəllim dedi ki, get onunla görüş, pulu qaytarması üçün bir şey elə. Mən onunla görüşdüm. O, məni Sabunçuda evinə aparıb, evinin sənədlərini, özü və yoldaşının şəxsiyyət vəsiqələrini verdi. Səmimi olduğunu düşündüyümüz üçün hüquqi işlər görmədik. Dedik ki, normal adamdı, pul gələn kimi qaytaracaq. Bir müddət keçəndən sonra Araz müəllimlə görüşdüm. O, Eldəniz müəllimə olan borcu barədə iltizamı yazılı şəkildə mənə verdi. Mən bunu hüquqi müstəvidə sənədləşdirdim. Birlikdə notariusa getdik. Təhvil-təslimlə bağlı müqavilə imzaladıq. Orada Arazın Eldənizdən borc aldığını və tez bir zamanda qaytaracağı ilə bağlı müqavilə imzaladıq. Həmin idarədə onun vəzifə borcları və pulun məbləği izah olundu. Bir müddət keçəndən sonra onunla yenidən görüşdüm. Bu məbləğdə pulu nə etdiyini soruşdum, o isə mənə Eldənizdən aldığı pullarla əvvəlki borclarını, faizlərini qaytardığını bildirdi. Yaxın zamanlarda vəziyyətin yaxşılaşacağını dedi. Notariusda təhvil-təslim haqda aktı onun yadına saldım ki, bu, hüquqi sənəddir. Verilən pulu vaxtında qaytarmalısan. Həmin akt 2014-cü il fevralın 6-da imzalanmışdı. Orda məbləğ 1 milyon 155 min manat göstərilmişdi".


İsfəndiyar Axundov

**Növbəti şahid Kənan Buludzadə oldu. Şahid əvvəllər Eldəniz Axundovun restoranı olan "Aqat" şadlıq evində nəzarətçi işləyib. Hazırda isə müstəqil şəxs kimi fəaliyyət göstərdiyini dedi:** "İndi xırda bizneslə məşğulam. O, zaman restoranda nəzarətçi idim. Bir gün rəhbərlik mənə zəng edib dedi ki, Araz müəllim ora gələcək, anbarın açarını ona ver. Mən də verdim. İçəridə mal var idi. Həmin malları götürdü, axırda mənə bir qaimə verdi ki, bunu çatdırarsan. Anbarın açarı elə o vaxtdan Araz müəllimdə oldu. Anbardan nəsə lazım olanda zəng eləyib çağırırdım, gəlib açırdı. Həmin qaiməni məhkəməyə təqdim edirəm".

**Təqsirləndirilən Araz Eyvazov qaiməni qəbul etməyib. Deyib ki, qaimə saxtadır:** "Burda nə mənim qolum var, nə də bu yazı mənim xəttimlə yazılıb".

Məhkəmə həmin qaimənin surətinin ekspertiziya göndərilməsi ilə bağlı qərar qəbul edib.

**Növbəti şahid AMEA-nın Arxelogiya və Etnoqrafiya İnistutunun elmi işçisi Şövqi Həsənov oldu. O, ifadəsində 2004-cü ildən həmin institutda elmi işçi olduğunu bildirib:** "Mən elmi işçiyəm, heç bir ticarətim yoxdur, vergi ödəməmişəm. Mən Arazı dostum Vüsal sayəsində tanımışam. Onlar biznes qurduqlarını bildirirdilər. Məni də bu işə cəlb etdilər. Birlikdə Eldəniz müəllimin yanına getdik. Danışdıq. Mənim işim gələn malların qiymətləndirilməsini çıxarıb, bazar qiymətinə uyğunlaşdırmaq olub. Başqa heç nədən xəbərim olmayıb. Qalan şeylərlə Araz məşğul olub. Vüsal da xarici ölkələrdən malları göndərib. 3 ay işləmişəm. Həmin dövrdə bircə dəfə Eldəniz müəllimlə İstanbula "Atlas" firmasına iş görüşünə getmişəm".

Hakim Azad Məcidov şahidin təqsirləndirilən şəxslə birlikdə ittiham olunacaq qədər qanunsuz işlər gördüyünü bildirib. Proses oktyabrın 13-də davam etdiriləcək.

Qeyd edək ki, Araz Eyvazova qarşı Cinayət Məcəlləsinin 179-cu (mənimsəmə) və 178.3.2 (külli miqdarda dələduzluq) maddəsi ilə ittiham irəli sürülüb.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Fermerlər niyə torpaqdan xeyir götürə bilmir?

## Ekspertlər səbəbləri sıralayır, gələn ildən subsidiyalar da kəsilə bilər, bu sahə ilə məşğul olmaq üçün ciddi proqram yoxdur...

**Kənd təsərrüfatı ilində belə ölkədə kənd təsərrüfatının durumu bərbaddır. Son olaraq açıqlanan pambıqçılıqla məşğul olan fermerlərin iflas həddində olmasıdır. Üstəlik, ölkədə taxıl idxalı artıb. Bildirilir ki, fermerlər daha taxıl əkməkdə də maraqlı deyillər. Manatın devalvasiyasından sonra fermerlərin taxıl sahələrini azaltmaq fikri aktuallaşıb. Sahibkarlar söhbət əsnasında tez-tez vurğulayırlar ki, torpaqdan xeyir, gəlir götürə bilmirlər. Artıq əkin-biçin gəlirsiz bir sahəyə çevrilib. Eyni fikirləri meyvə-tərəvəz yetişdirən fermerlər də qeyd edirlər. Ekspertlər isə fermerləri torpaqdan uzaqlaşdıran səbəbləri açıqlayırlar.**



**Ekspert Qadir İbrahimlinin** sözlərinə görə, səbəblər arasında birincisi fermerlərin istehsal etdikləri məhsulların satış bazarı probleminin olmasıdır: "Yəni onlar məhsullarını sata bilmirlər. Bu baxımdan, istər taxılçılıqda, istər meyvəçilikdə, məhsul bazarında, sektorunda eyni vəziyyət var. Tutaq ki, Qubada fermerlər yetişdirdikləri almanı sata bilmirlər, ciddi satış problemləri var. Bu problemlərin də müxtəlif səbəbləri var. Satış bazarları müəyyən monopoliyaların əlindədir. Başqa sərbəst oyunçuların bazara daxil olmasını istəmirlər. Elə şərait yaradılır ki, fermer normal, rentabelli işləyə bilməsin, monopolistin diqtə etdiyi qiymətlərlə işləsin. Əksər hallarda da bu, fermerə sərf etmir. Eyni vəziyyət taxılçılıqla bağlı da mövcuddur, həmçinin digər sahələrdə də vəziyyət oxşardır. Üstəlik, kənd təsərrüfatı ilə məşğul olan fermerlər dövlətdən lazım olan dəstəyi görmürlər. Dünyada kənd təsərrüfatı sektoru bir qayda olaraq az rentabelli sektor sayılır. Ona görə də dövlət bu sektoru daim subsidiyalaşdırır. Birbaşa və ya dolayısı ilə yardımlar edir ki, həmin fermerlər fəaliyyətlərini davam etdirməkdə maraqlı olsunlar. Azərbaycanda təkcə torpağa görə hər hektarına 40 manat subsidiya nəzərdə tutulur ki, bu da fermerlərin ehtiyacları üçün yetərli deyil. Həmin 40 manat subsidiya da əksər hallarda əkin başa çatandan sonra verilir. Bu, əkin vaxtı verilməlidir ki, fermerlər ehtiyaclarını qarşılayıb əkin prosesini normal şəkildə həyata keçirə bilsinlər. Ümumiyyətlə, Azərbaycanın kənd təsərrüfatı sektorunun inkişaf tempi də zəifdir. Problemlər də olduğundan, fermerlər torpaqdan səmərəli istifadə etməkdə maraqlı olmurlar".

**Ekspert Natiq Cəfərli isə qeyd edir ki, problemlər çoxdur və bir neçə hissəyə ayrılır:** "Birincisi, hökumət və dövlət strukturları ilə bağlı problemdir. Biz dəfələrlə xəbərdarlıq etmişdik ki, əraziyə görə stimullaşdırma proqramının qəbulu çox primitivdir. Gələcəkdə ciddi problemlərə səbəb olacaq. Həm korrupsiyaya səbəb olacaq, həm də ümumiyyətlə işi stimullaşdırmır. Fermerlərin stimullaşdırılmasına xidmət etmir. Çünki kimin nə qədər ərazisi varsa, o ərazidə əkdiyi məhsulun həcminə və növünə görə subsidiya alır. Fermer taxılçılıqda 80 manat, digər məhsullarda 40 manat dəstək alır hökumətdən. Bu isə onların gələcəkdə çox və keyfiyyətli məhsul götürməsini xeyli dərəcədə aşağı salır. Son məhsula görə stimullaşdırma proqramı qəbul olunmalıdır. Son məhsulun həcminə və keyfiyyətinə görə dövlət tərəfindən dotasiyaların ödənilməsi vacibdir. Onda fermerin məsuliyyəti və marağı artacaq. Daha çox və daha keyfiyyətli məhsul istehsal edəcək ki, qoyduğu xərcləri çıxara bilsin. İkinci problem odur ki, Azərbaycanda torpaq islahatı aparılarkən, səhv bir yol tutuldu ki, torpaq paylarının ayrılması çox kiçik fermer təsərrüfatlarının yaranmasına gətirib çıxartdı. Torpaq sahəsi nə qədər kiçikdirsə, orada qoyulan xərclərin həcmi sonda maya dəyərinin yüksək olmasına gətirib çıxarır. Bir çox ölkələrin praktikası göstərir ki, böyük fermer təsərrüfatları daha çox rentabelli işləyir. Azərbaycanda torpaq islahatından sonra da ya insanlar paylarını satdılar, ya icarəyə verdilər, ya da boş qaldı. Böyük ərazilər iri məmurlara çatdı. Bu da çox ciddi təsir göstərir stimullaşdırma məsələsinə və istehsalın aşağı düşməsinə. Üçüncü amil həm yerli, həm xarici bazara məhsulların çıxarılmasının qarşısında olan əngəllərdir. Daxili bazarda həm yol xərclərinin artması, həm yol polislərinin, nəqliyyat müfəttişlərinin müdaxilələrinə məruz qalması, mal daşımalarında problemlərin yaşanması, artıq rayon nömrəli maşınların Bakıya buraxılmasında yaranan qadağa-maneələr onların daxili bazara çıxışına problemlər yaradır. Fermerlər mallarını ucuz qiymətə alverçilərə verməyə məcburdurlar. Xarici bazarda isə həm yol, nəqliyyat xərcləri, həm gömrükdə olan maneələr var. Bizim Rusiya kimi daxili bazarı böyük həcmdə olan qonşumuz var, tələbat var Rusiyada. Son ilyarımda Rusiya xaricdən, Avropadan gətirilən mallara, ərzaq məhsullarına embarqo qoyub və Azərbaycan üçün böyük bazar fürsəti yaranmışdı. Azərbaycan normal siyasət yürütsəydi, hökumət fermerlərə dəstək versəydi, Azərbaycan fermerləri daha böyük həcmdə mal çıxara bilərdilər Rusiya bazarına. Amma bu, baş vermədi. Yəni bütün bunlar enində-sonunda indiki vəziyyətə gətirib çıxarır. Fermerin işləmək üçün ciddi marağı olmur. Nəticədə insanlar öz rayonlarını tərk edib Bakıya, Abşeron yarımadasına gəlirlər ki, iş tapsınlar, dolanışıqlarını təmin edə bilsinlər. Getdikcə bu problemlər daha da dərinləşəcək. Çünki Azərbaycanda gələn ildən etibarən büdcədə yaşanan problemlərlə bağlı xərclərin azaldılması ola bilər. Ola bilsin, fermerlərə ayrılan subsidiyalara da təsir göstərsin. Onsuz da qeyri-effektiv olan subsidiyalar azaldılsa, gələcəkdə torpaqda çalışmaq maraqsız olacaq. Bu sahə ilə məşğul olmaq üçün ciddi proqram sənədləri hazırlanmalıdır".

❑ **RÖYA**

YENİ MÜSAVAT
N 220 (6250) 8 oktyabr 2015

## Bakıda evlərdən oğurluq edən cinayətkar dəstə tutuldu



**Bakıda yaşayış evlərindən oğurluq edən cinayətkar dəstə yaxalanıb. Bakı Şəhər Baş Polis İdarəsindən APA-ya verilən məlumata görə, keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində paytaxtın Sabunçu, Suraxanı və Xətai rayonlarında yerləşən yaşayış evlərindən oğurluq etməkdə şübhəli bilinən Ağcabədi rayon sakini, əvvəllər məhkum olunan, 1983-cü il təvəllüdlü Mirzai Elməddin Eyvaz oğlu, Ağdam rayon sakini 1992-ci il təvəllüdlü Mirzəyev Hümbət Aqil oğlu, Bakı şəhər sakini 1990-cı il təvəllüdlü Həsənov Elmin Firdovsi oğlu müəyyən olunaraq tutulublar.**

Şübhəli şəxslər ətrafında keçirilən ilkin istintaq, əməliyyat-axtarış tədbirləri ilə müəyyən olunub ki, onlar avqustun 16-da axşam saatlarında Sabunçu rayonu Bakıxanov qəsəbəsi Y.Əliyev küçəsində Natella Ağamirzəyevanın evindən pəncərənin dəmir barmaqlığını sındırmaqla 400 manat, noutbuk, planşet və 2 ədəd qol saatı, eyni üsulla sentyabrın 15-də gecə saatlarında Xətai rayonu Pivəzavod küçəsində Davud Həmidovun evindən 500 ABŞ dollar, 1250 Türkiyə lirəsi, qızıl-zinət əşyaları, sentyabrın 19-da Bülbülə qəsəbəsində Gövhər Əliyevanın evindən açıq pəncərədən keçməklə noutbuk və qızıl-zinət əşyalarını talayıblar. O da müəyyən olunub ki, dəstə üzvləri sentyabrın 19-da gündüz saatlarında Bülbülə qəsəbəsində Nadir Bağırovun evindən açıq pəncərədən keçməklə oğurluğa cəhd ediblər.

Şübhəli şəxslər barəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb.

Hazırda cinayət işi üzrə istintaq tədbirləri davam etdirilir.

## Başsağlığı

**D.Əliyeva adına Azərbaycan Qadın Hüquqları Cəmiyyətinin kollektivi cəmiyyətin üzvü**
**Solmaz Əzizovanın**
**vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.**

***

**D.Əliyeva adına Azərbaycan Qadın Hüquqları Cəmiyyəti Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağıya qardaşı**
**Talıbın**
**vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

***

**«Jurnalistlər Ekstremal Şəraitdə» İctimai Birliyinin kollektivi Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağıya qardaşı**
**Talıbın**
**vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**


## 31 yaşlı Qəbələ sakini itkin düşüb



**Qəbələ rayon sakini Hətəmov Ramil Əhməd oğlu itkin düşüb. "Qafqazinfo"ya bu barədə həmin şəxsin ailəsi və dostları məlumat verib. Onların sözlərinə görə, 31 yaşlı Ramil Hətəmov oktyabr ayının 1-də günorta saatlarında telefon düzəltdirmək, bankomatdan pul çəkmək adı ilə Qəbələ rayonunun Soltannuxa kəndində evdən çıxıb və bir daha qayıtmayıb.**

Şəxsin heç bir əqli və ya psixoloji problemi olmayıb. Evdən çıxarkən əynində göy cins şalvar, dama-dama köynək, ayağında da qara ayaqqabı olub.

Görənlərdən xahiş olunur ki, aşağıdakı nömrələrlə əlaqə saxlasınlar.

(055) 203 09 20; (055) 207 22 63; (050) 373 66 25

## «Bakcell» 2016-cı ilin 1-ci rübündə Abşeron yarımadasının bütün ərazisini super yüksək sürətli LTE şəbəkəsi ilə əhatə edəcək

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi «Bakcell» şirkəti böyük məmnuniyyətlə özünün 4G şəbəkəsinin əhəmiyyətli dərəcədə genişləndirilməsi planlarını elan edir. Şirkətin İdarə Heyətinin 30 sentyabr 2015-ci il tarixli qərarına əsasən, 2016-cı ilin 1-ci rübündə «Bakcell» şirkətinin super yüksək sürətli LTE xidməti Abşeron yarımadasının bütün ərazisini əhatə edəcək. Beləliklə, 4G şəbəkəsinin indiki əhatə dairəsi gələn ilin 1-ci rübünə 2.5 dəfə artaraq, Abşeron yarımadasının coğrafi ərazisinin 98.75%-də mövcud olacaq. Rəqəmlərlə ifadə etdikdə bu o deməkdir ki, «Bakcell» şirkəti növbəti 6 ay ərzində əlavə olaraq daha 600 4G baza stansiyası quraşdırmaqla Abşeron yarımadasında fəaliyyət göstərən LTE baza stansiyalarının ümumi sayını 1000-ə çatdıracaq və öz rəqiblərini bu göstərici üzrə əhəmiyyətli dərəcədə üstələyəcək. Bu istiqamətdə artıq başlanılmış hazırlıq və quraşdırma işləri 2016-cı ilin 1-ci rübünün sonunadək yekunlaşdırılacaq. «Bakcell» şirkəti smartfon istifadəçiləri üçün nəzərdə tutulmuş LTE şəbəkəsinin inkişaf etdirilməsi istiqamətində fəaliyyətini davam etdirəcək.**

**Özünün 400 baza stansiyası ilə «Bakcell» şirkəti hazırda Azərbaycanda ən qabaqcıl və ən böyük 4G operatorudur. «Bakcell» şirkətinin 4G şəbəkəsi Bakı əhalisinin 90%-ni əhatə edir və bu genişləndirmə ilə onun əhatə dairəsi bütün Abşeron yarımadasının 98,75%-ni əhatə edəcək.**

**«Bakcell» öz şəbəkəsini digər operatorlardan daha tez genişləndirmək imkanına malikdir, çünki indi biz abunəçilərimizin artan tələbatlarını qarşılamaq üçün ölkədə ən iri mobil rabitə şəbəkəsinə və əhəmiyyətli internet tutumuna malikik. 4G xidmətinin abunəçiləri də daxil olmaqla, mobil data istifadəçilərimizin sayı sürətlə artmaqdadır. 4G abunəçilərimizin sayı rüb ərzində ikiqat artıb. Biz LTE şəbəkəsinin inkişafına daim sərmayə qoymaqla Azərbaycanda ən böyük 4G operatoru adına layiq olmaq və ölkədə mobil rabitə sahəsinin inkişafını stimullaşdırmaq üçün səylərimizi gələcəkdə də davam etdirəcəyik. Əhatə dairəsinin daha geniş olmasını, habelə 4G şəbəkəsinin imkan verdiyi internetə yüksək sürətli çıxışı tələb edən smartfon istifadəçilərinin spesifik tələbatlarını təmin etmək üçün «Bakcell» şirkəti özünün 4G LTE şəbəkəsinin inkişaf etdirilməsini diqqət mərkəzində saxlayır", - deyə «Bakcell» şirkətinin baş icraçı direktoru cənab Riçard Şirer bildirib.**

**2015-ci ildə Azərbaycan Respublikası ərazisində keçirilmiş şəbəkələrin müstəqil keyfiyyət monitorinqlərinin (bençmarkinq) nəticələrinə görə, «Bakcell» şirkəti özünün 5300-dən artıq baza stansiyası ilə şəbəkənin keyfiyyəti və yüksək texnologiyaların tətbiqi baxımından bazarda üstünlüyünü qoruyub saxlayır.**

**"İnanırıq ki, 4G şəbəkəsinin genişləndirilməsi istiqamətində apardığımız işlər 3G şəbəkəsinin inkişaf etdirilməsi üzrə apardığımız və şirkətimizin simsiz data xidmətləri sahəsində aparıcı mövqeyə sahib olması ilə nəticələnmiş işlər kimi uğurlu olacaq. «Bakcell» şirkəti qısa müddət ərzində Azərbaycanın bütün bölgələrində 3G xidmətini təmin etməyə müvəffəq olub. Bu gün biz 4G şəbəkəsini genişləndirməklə yanaşı, bütün ölkə ərazisində əlavə 3G stansiyalarının quraşdırılması üzrə işləri davam etdiririk. Bizim 3G şəbəkəmizin əhatə dairəsi son iki ildə 50% genişlənərək ölkə əhalisinin 93%-ni əhatə edir. «Bakcell» şirkətinin 4G LTE xidmətinin istifadəyə verildiyi vaxtdan biz istifadəçi davranışında iki əsas istiqaməti müşahidə etmişik. «Bakcell» şirkətinin 4G abunəçiləri 10 dəfə daha yüksək sürətli mobil data xidmətlərindən orta hesabla iki dəfə çox istifadə edirlər və 4G xidmətindən istifadə etməyə yeni başlayan müştərilər arasında müştəri məmnuniyyəti əhəmiyyətli dərəcədə artıb",- deyə «Bakcell» şirkətinin baş texniki direktoru cənab Yigit Berktaş bildirib.**

**«Bakcell» şirkəti 4G LTE xidmətlərini Abşeron yarımadasının bütün ərazisi üzrə genişləndirdikdən sonra 4G şəbəkəsinin Azərbaycanın digər bölgələrində də quraşdırılması imkanlarını nəzərdən keçirməyi planlaşdırır.**

## Goranboyda şagird orta məktəbə qumbara ilə gəldi

**Goranboyda şagird məktəbə qumbara gətirib. APA-nın Daxili İşlər Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, oktyabrın 6-da Goranboy rayonunun Tapqaraqoyunlu kənd orta məktəbində şagird Ramil Şəmmədovun məktəbə gətirdiyi 1 ədəd "F-1" qumbarası müəllimlər tərəfindən alınıb və rayon polis şöbəsinin əməkdaşlarına təhvil verilib.**

Araşdırmalar zamanı R.Şəmmədov izahatında həmin məktəbin şagirdi Emil Şirinovla birgə kəndin kənarında olarkən hərəsinin 1 ədəd qumbara tapmalarını bildiriblər. E.Şirinovun yaşadığı evə baxış zamanı 1 ədəd "F-1" qumbarası aşkar edilərək götürülüb.

## Azərbaycanlı biznesmen polislərlə atışdı

**Rusiyanın Sankt-Peterburq şəhərində silahlı insident baş verib. BAKU.WS-in məlumatına görə, mehmanxanalardan birində atışma zamanı polis əməkdaşı yaralanıb. Zərərçəkən polisin vəziyyəti ağırdır.**

Qoroxov küçəsində qeydə alınmış hadisənin təfərrüatları da məlum olub. Mehmanxananın foyesində iki qrup insan arasında münaqişə olub. Mübahisə qızışdıqdan sonra tərəflərdən biri digərinə travmatik tapançadan atəş açıb. Dava küçədə davam edərkən atışma odlu silahdan edilib.

Polis münaqişənin dörd iştirakçısını saxlayıb, digər nəfər isə xəstəxanaya yerləşdirilib. Xəstəxanaya aparılmış yaralılardan biri Rusiya Daxili İşlər Nazirliyinin Sankt-Peterburq üzrə polis əməkdaşı olub. Hadisə yerində aparılan araşdırmalar zamanı 1 travmatik tapança, səkkiz patron, on giliz, iki beysbol taxtası, rezin dəyənək və patron götürülüb.

İlkin məlumata görə, münaqişə əvvəlcə biznesmenlər və polis əməkdaşları arasında baş verib. Stanislav Yakovlev, Pavel Tatarinovım, Azər Ağaxanov və Yevdokimov 4 polis əməkdaşı ilə mübahisə edib. Qarşıdurma mehmanxananın barında başlayıb. Dava qızışdıqdan sonra dalaşanlar küçəyə çıxıblar. Polislər daha 5 nəfər çağıraraq davanın böyüməsinə səbəb olublar.

Faktla bağlı araşdırma başlanılıb. "Qəsdən adam öldürmə" maddəsi üzrə cinayət işi qaldırılıb.

## Bakıda iki qardaş müəmmalı şəkildə yaralanıb

**Ötən gecə xəsarət alan Ramana sakinləri 3 saylı şəhər Kliniki Xəstəxanasına yerləşdiriliblər. Xəstəxanadan APA-ya verilən məlumata görə, Ramana qəsəbəsi, "Südçülük Sovxozu" deyilən ərazidə yaşayan yaralılar 22 yaşlı Elvin Bayramov və 26 yaşlı Babək Bayramov qardaşlarına dərhal tibbi yardım göstərilib. Müayinə zamanı Elvin Bayramova qolun sınığı diaqnozu, Babək Bayramova isə bədənin müxtəlif nahiyəsinin kəsilmiş-deşilmiş yarası diaqnozu qoyulub.**

Bayramov qardaşları polisə verdikləri ilkin ifadələrində avtomobil qəzasında yaralandıqlarını söyləyiblər. Lakin polis onların bu ifadəsini inandırıcı saymayıb. 22 yaşlı Elvin Bayramov ifadəsinin alınması üçün Sabunçu Rayon Polis İdarəsinin 12-ci polis bölməsinə gətirilib.

Polisdən APA-ya verilən məlumata görə, Bayramov qardaşlarının ifadələri əsasında araşdırma aparılır. Aparılan araşdırma nəticəsində hadisənin əsl səbəbini öyrənmək mümkün olacaq.

## «Azercell»in «Barama» mərkəzi PAŞA Bank ilə əməkdaşlıq memorandumu imzalayır



Texnoloji innovasiyaların hakim olduğu bir zamanda «Azercell Telekom» MMC-nin «Barama» İnnovasiya və Sahibkarlıq Mərkəzi maraqlı layihələr həyata keçirməkdə davam edir. 2009-cu ildən fəaliyyətə başlayan «Barama» mərkəzi ölkəmizdə yerli startap-ların üzə çıxmasına yardımçı olaraq, gənclər arasında həm texnoloji savadın, həm də sahibkarlıq bacarıqlarının inkişaf etdirilməsinə şərait yaradır. Mərkəz bazarda innovativ mühitin inkişaf etdirilməsi üçün bir sıra qlobal təşkilatlar, qurumlar və Qeyri Hökumət Təşkilatları ilə da əməkdaşlıq edir.

Sevindirici haldır ki, «Azercell»in Barama mərkəzi bu sahədə ölkənin aparıcı banklarından biri olan PAŞA Bank ilə əməkdaşlıq memorandumu imzalayıb. Hər iki şirkət üçün layihənin əsas məqsədi Azərbaycanda İKT və qeyri-neft sektorunun inkişafına dəstək olaraq fərdi sahibkarlığın artmasına və güclənməsinə yol açmaqdır.

Xatırladaq ki, «Azercell»in Barama mərkəzi PAŞA Bank-la artıq ötən yay Bakıda keçirilmiş "Seedstars World" müsabiqəsində də əməkdaşlıq edib. Qeyd edək ki, PAŞA Bank Azərbaycan bank sistemində təşkilati strukturunda peşəkar iqtisadçı komandası olan nüfuzlu və etibarlı bankdır. Ölkədə bankçılığın, bu sahəyə aid texnologiyaların, eləcə də orta və kiçik biznesin inkişafı PAŞA Bankın üçün də strateji əhəmiyyət kəsb edən məsələlər sırasındadır.

Bu baxımdan «Azercell»in Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi iki nüfuzlu şirkətin məqsəd və maraqlarının qarşılaşdığı bir layihə olaraq, gələcəkdə uğurlu biznes əməkdaşlığı üçün mükəmməl imkanlar yaradır.

Daha ətraflı məlumat üçün news@mcs.az ailto:news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

YENİ MÜSAVAT
N 222 (6250) 8 oktyabr 2015



# Azərbaycanda qan donduran cinayətlər artır...

## Səbəb cahillik, işsizlik və ağır psixoloji durumdur

**Elə həftə olmur ki, kriminal xronikada qatı cinayət hadisəsi barədə məlumat olmasın. Ata-anasını gecə yatdığı vaxt qətlə yetirən oğlu, qayınatası ilə birləşib ərini öldürən, daha sonra ayaqyoluna atan qadın... Bunlar sadəcə son günlər kriminal xronikada yer alan, yada düşən ən tükürpədici hadisələrdən bir neçəsidir.**

Amma son illər adına "namus cinayəti" deyilən, əsasən qadınların vəhşicəsinə qətlə yetirilməsi ilə müşayiət olunan hadisələrin sayı artmaqdadır. Qəribə xəyanət hekayələrinin də fonda olduğu hadisələrə isə cəmiyyətin təpkisi birmənalı olur. Xüsusən Şərq cəmiyyətlərində sözügedən cinayətlərə az qala haqq qazandırılır.

Ümumən, dünya üzrə rəqəmlərə nəzər salaq. Birləşmiş Millətlər Təşkilatının Demoqrafik Fondunun məlumatına görə, hər il dünyada 5 mindən çox qadın namus məsələsinə görə öldürülür. Bu cinayətlərin 70 faizi ərləri, ya da sevgililəri tərəfindən törədilir. Dünyada hər 3 qadından 1-i həyatının bir dönəmində zorakılığa məruz qalır. Hər 5 qadından 1-i isə həyatının hansısa mərhələsində təcavüz və yaxud təcavüz cəhdinin qurbanı olur. ABŞ-da hər 90 saniyədə 1 qadın təcavüzə uğrayır, İraqda 2003-cü ilin aprelindən bu yana ən azı 400 qadın təcavüzə uğrayıb. Bu cinayətlər daha çox Banqladeş, Braziliya, Ekvator, Misir, Hindistan, İsrail, İtaliya, İordaniya, Mərakeş, Pakistan, Türkiyə, Uqanda və İngiltərədə baş verir.

ABŞ-da qadınlar daha çox silahla öldürülür, Hindistanda amansız yola əl atırlar. Hindlilər qadınları döyür, sonra da yandırırlar. Polislərə isə "mətbəx qəzası" deyib, canlarını qurtarırlar.

Türkiyədə mürtəce tayfa adət-ənənələri və namus məsələsi qadınların həyatı üçün real təhlükədir.

"Təmiz dünya" İctimai Birliyinin araşdırmalarına görə, Azərbaycanda 2013-cü ildə 56 qadın öldürülüb, 32 qadınla bağlı isə ölümə qəsd faktı qeydə alınıb. Öldürülən qadınlardan 24 nəfəri qısqanclıq zəminində, 9-u ailə münaqişəsi zamanı, 1-i isə namus üstündə qətlə yetirilib. Daha 18 nəfər münaqişə nəticəsində öldürülüb. Qısqanclıq zəminində ölümə qəsdlə üzləşənlər 21 nəfər, münaqişə nəticəsində ölümə qəsdlə üzləşənlər isə 12 nəfər olub. Araşdırmaya görə, 2012-ci ildə 15 qadın əri tərəfindən öldürülüb. Kişilərin öz həyat yoldaşlarını öldürməyə cəhd etməsi ilə bağlı isə 13 fakt qeydə alınıb. 2 qadını qardaşı qətlə yetirib. Ölümə qəsdlə bağlı isə bu faktların sayı 4 olub. Kürəkəninin qətlə yetirdiyi qayınanaların da sayı az deyil - 4 nəfər. Bacısı oğlu tərəfindən 5 nəfər, tanışı tərəfindən 10 nəfər, atası tərəfindən isə 1 nəfər qətlə yetirilib. Öldürülən qadınların 3-ü balta, 3-ü isə tüfənglə qətlə yetirilib. Ölüm halları ilə bağlı qalan 50 hadisə bıçaqla törədilib.

Əvvəllər namus cinayətlərinin qurbanları əxlaqsızlıq edən və təcavüzə uğramış qızlar olurdusa, bu gün ailədaxili problemlər nəticəsində öldürülən qadınların üzərinə ləkə kimi "əxlaqsız" damğası vurulur və cinayətkar özünü namuslu insan kimi təqdim edir.

Eyni təşkilatın KİV-də apardığı monitorinqə əsasən, 2012-ci ildə təxminən 109 "namus üstündə qətl" törədilib, bu cinayəti törətmək istəyi ilə bağlı təxminən 63 cəhd qeydə alınıb. 2011-ci ildə 136 nəfər öldürülüb. 2013-cü ildə isə artıq təxminən 38 "namus üstündə qətl" törədilib.

Dünyada hər il ən azı 20 min qadının "namus üstündə" öldürülməsi isə bir başqa statistikanın nəticəsidir.

Psixoloqlar məsələni tamam fərqli aspektdən izah edir. Onların qənaətinə görə, öldürülən qadınların heç də hamısı əxlaqsız olmur. Çünki öldürülən zərif cinsin nümayəndələrinin bir hissəsi iftiraya məruz qalan qadınlar, digər bir hissəsi isə ailə adət-ənənələrinə üz çevirən qadınlardı. Öldürülən 10 qadından 2-nin əxlaqsız olma ehtimalı var. Amma bunu da heç kəs sübuta yetirə bilməz.

Yaxşı, bəs bu qəddar qətllərin kökündə nə dayanır? Sovet dönəmində də bu cür qətllərin olduğunu düşünən sosioloqların fikrincə, həmin vaxt media, sosial media bu qədər aktiv olmadığı üçün hər şey "bir daş altda, bir daş üstdə" prinsipi ilə gizli saxlanırdı. Amma indi baş verənlər dərhal mediaya, ordan da cəmiyyətin bütün təbəqələrinə yayılır. Nəticədə isə ajiotaj yaranır.

Amma belə düşünənlərlə yanaşı, məsələnin psixoloji qatlarına enənlər də az deyil. Belə ki, heç də hər şey kasıblığın yaratdığı aqressiya ilə bağlı deyil.

Cəmiyyətdə özünü göstərən ciddi təbəqələşmə vəziyyəti daha da ağırlaşdırır. İnsanların dolanmaq üçün bir neçə mərhələdən keçməsi və hər dəfə də uğursuzluğa düçar olması məlum mənzərəni daha da faciəvi edir. Həyatda uğur qazana bilməyənlər çox vaxt aqressiyasını daha çox öz yaxınından çıxarır. Ən kiçik səhvini belə bağışlamır və bəzən "sudan səbəblərlə" emosiya partlaması yaşayırlar.

İşsizlik də aqressiyanın, dolayısı ilə belə dəhşətli, amansız qətllərin kökündə həm də işsizlik yaradır. Sutkada 11-12 saat çalışan adamlarda isə fiziki yorğunluqla yanaşı, mənəvi gərginlik də olur və bu, özünü aqressiya formasında üzə vurur.

Dünya üzrə yayılan anlayışlardan biri də cinayətin profilaktikasıdır. Yəni cinayətkarların islah olunacağı hər hansı məkan yoxdur. Son nəticədə isə haçansa cinayət edənlər təkrar cinayət törədirlər. Buna residiv deyirlər.

❑ **Sevinc TELMANQIZI**

# Soyadı dəyişdirmək niyə problemə çevrilib?

## Soyad dəyişdirmək qanunla qüvvəyə minsə də, "ov" və "yev" sonluqlarından "qurtulan"ların sayı da olduqca azdır




**Azərbaycanda daha çox müzakirə edilən mövzulardan biri də soyad və ya sonluqlarının dəyişdirilməsi məsələsidir. Soyad dəyişdirmək qanunla qüvvəyə minsə də, "ov" və "yev" sonluqlarından "qurtulan"ların sayı olduqca azdır. Bəs bu azlığın səbəbi nədir?**

Çoxları bunun üçün çoxlu sənədlər tələb edildiyini və bunun üçün də bir həftə vaxt lazım olduğunu bildirirlər. Hətta insanların işini yüngülləşdirən "ASAN xidmət"də də bu prosedur uzun çəkir. Əməkdaşlarımızdan biri öz soyadını dəyişdirmək üçün "ASAN xidmət"ə müraciət edib. Ondan istənilən sənədlərin siyahısına baxdıqda doğrudan da bunun üçün xeyli zaman lazım olduğu görünür. Tələb edilən sənədlər isə bunlardır: adın, ata adının və soyadın dəyişdirilməsi haqqında ərizə; ərizə verən şəxsin doğum haqda şəhadətnaməsi; ərizə verən şəxs nikahdadırsa, nikah haqqında şəhadətnamə; ərizə verən şəxsin nikahı pozulmuşdursa, nikahın pozulması haqqında sənəd; ərizə verən şəxsin yetkinlik yaşına çatmayan uşaqları vardırsa, onların doğum haqqında şəhadətnamələri; şəxsiyyəti təsdiq edən sənədin notariat qaydasında təsdiq olunmuş surəti; ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqənin və ya hərbi biletin notariat qaydasında təsdiq edilmiş surəti; ərizə verən şəxsin 3x4sm ölçüdə 2 ədəd fotoşəkili; dövlət rüsumunun ödənilməsi barədə sənəd.

**"ASAN xidmət"in ictimaiyyətlə əlaqələr sektorunun rəhbəri Anar Hüseynov "ASAN xidmət"in işinin yalnızca xidmətin təşkili olduğunu bildirdi:** ""ASAN xidmət"in işi dövlət qurumları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən göstərilən xidmətlə işin təşkilidir. Xidmətlərin göstərilməsi isə bir başa aidiyyəti orqanlar tərəfindən həyata keçirilir. Soyadların dəyişdirilməsi xidməti Ədliyyə Nazirliyinin Vətəndaşlarıq Vəziyyəti Aktlarının Dövlət Qeydiyyatına aid olan xidmətlərdir. Biz də Ədliyyə Nazirliyinin bu xidmətini "ASAN xidmət" çərçivəsində həyata keçiririk. Xidməti isə onlar göstərir. Bizim işimiz isə yalnızca xidmətin təşkilidir".

Ümumiyyətlə, soyad sonluğunu dəyişmək hər kəsin öz işidir. Azərbaycan vətəndaşlarının soyadlarının dövlət dilinə uyğunlaşdırılması ilə bağlı 1993-cü ildə qəbul olunan qanuna əsasən, ölkə vətəndaşları soyadlarındakı "-ov", "-yev" sonluqlarını "-lı" *(sözün kökündən asılı olaraq "-li", "-lu", "-lü")*, "-zadə", "-oğlu", "-qızı" sonluqları və ya sonluqsuz ifadə formaları ilə əvəz edə bilərlər. Soyadlar müxtəlif olur. Soydan gələn adla bağlı, peşə və ya məşğuliyyətin adından düzələn soyadlar, yer adından düzələn soyadlar, taxma ad və ya sonradan qazanılan soyadlar var. Soyad, adından da göründüyü kimi, bir insan doğulduğu zaman ona ailəsinin daşıdığı soyadın verilməsi anlamına gəlir. Yeni uşaq dünyaya gəldiyi zaman atasının və ya anasının daşıdığı soyadı ona verirlər və bu, sadə bir texniki proses kimi qeydə alınır. Peşə və ya məşğuliyyət adından düzələn soyadlar xüsusən də orta əsrlərdə geniş yayılmışdı. Misal üçün, Dəmirçilər, Nalbəndlər, Əkinçilər və s. kimi. Yer adından düzələn soyadlarda bir insanın və ya nəslin doğum yerinə bağlı olaraq ona soyadı düzəldilir. Misal üçün, Bakuvi və ya Bakılı, Təbrizli, Şəkili, Makulu, Qəşqərli, Balasaqunlu və sairə. Taxma ad və ya sonradan qazanılan soyad -bir insanın doğuşdan adı olsa da soyadı olmadığından onun adına ad əlavə etmək zərurəti hər zaman olub. Tutaq ki, bir kənddə yaşayan eyni adlı insanları fərqləndirmək üçün onlara daha bir ad qoşulub. Misal üçün, əgər eyni adlı adamları fərqləndirmək lazım gəlibsə, onların xarakterinə uyğun əlavə adları yaranıb: Dəli Həsən, Zəvzək Hüseyn, Torbalı Aslan və başqaları kimi.

❑ **Günel MANAFLI**

# YENİ MÜSAVAT

## Son səhifə

*N 222 (6250) 8 oktyabr 2015*


# Qab yu, stress at...



Amerikanın Florida Dövlət Universitetində aparılan araşdırmalar nəticəsində məlum olub ki, qab yumaq stressi azaldır. Qab yuyan təmizləyici vasitələrin qoxusu hiss edilərkən narahatlıq hissi 27% azalır, zehni yorğunluq isə 25% ortadan qalxır. Araşdırmaçı Adam Hanleyə görə, gündəlik həyatda bu cür işlər stresi azaldır və insanın özünü yaxşı hiss etməsinə kömək edir.



## Qripdən qorunmağın sadə yolu

Payız fəslinin gəlişi və havaların soyuması ilə əlaqədar insanlar arasında yoluxucu xəstəliklər, xüsusən də qrip yayılmağa başlayıb. Həkimlərin fikrincə, bu xəstəliklərdən qorunmaq üçün ilk növbədə havaya uyğun geyinməyə və düzgün qidalanmağa fikir verilməlidir.

Məsələn, hesab edilir ki, yaşıl yarpaqlı çiy tərəvəzlərin qida dəyəri çox yüksəkdir. Onlar qan damarlarını qoruyur, iltihabı azaldır və xəstəliklərə yol aça biləcək ya xəstəlikləri sürətləndirəcək faktorları uzaqlaşdırır. Hər gün az yağlı tərəvəz salatı yeyərək mövsümü daha sağlam keçirdə bilərsiniz.

Yağlı balıqların tərkibində omeqa 3 və selenium var. Omeqa 3 bədəndəki iltihabi azaldır, ağciyərlərə hava axınını artırır və qoruyur. Həftədə 2 dəfə balıq yeməklə immun sistemini gücləndirə bilərsiniz.

Soğan, sarımsaq, yaşıl soğan zəngin tərkibi ilə immun sisteminə böyük təsir göstərir və infeksiyalara qarşı mübarizə aparır. Gündəlik olaraq göyərtinin qəbulu orqanizmə müsbət təsir göstərir

Qatıq orqanizm üçün son dərəcə faydalıdır. Bu süd məhsulunu "Təbii antibiotik" adlandırmaq olar. Gündə 1 kasa qatıq yeməklə bağırsaqlardakı qorxulu xəstəliklərə gətirib çıxara biləcək çoxlu sayda bakteriyanı azalda bilərik.

Yumurta bu silsilədə ən əhəmiyyətlisidir. Ən keyfiyyətli zülal da elə yumurtanın tərkibindədir. Yumurta sarısı immuniteti möhkəmləndirən A vitamininin anbarıdır.

# Simsiz internet ən çox uşaq orqanizminə təhlükədir

**İnternet olan hər evdə kabelsiz bağlantı (wi-fi) artıq adi hal alıb. Avropa ölkələrində ictimai təşkilatlar hökumətdən tələb edirlər ki, ən çox uşaqlara təsir edən wi-fi-nin bağçalarda və orta məktəblərdə istifadəsi məhdudlaşdırılsın.**

wi-fi 2-ci Dünya müharibəsi zamanı düşmənin uçan obyektlərini təyin etmək üçün quraşdırılan və güclü şüalanma verən radar operatorları ilə müqayisə edilir və insan orqanizminə vurduğu ziyana görə eyniləşdirilir. Alimlərin hesablamalarına görə, 3 yaşından 16 yaşına qədər uşaqlar əvvəlcə uşaq bağçasında, daha sonra isə məktəbdə 10 min saat simsiz rabitə vasitələrinin şüalarına məruz qalırlar. Britaniyanın "Sunday Mirror" qəzetinin mütəxəssislərə istinadən yazdığına görə, uşaqların beyinləri kiçik olduğu və onların beyinlərində su az olduğu üçün mikrodalğalar onlara sürətli və tez təsir edir.

Uşaqlar radiasiyanı daha çox qəbul etmək xüsusiyyətinə malik olduğu üçün bu şüaların beyin şişi yaratma riski daha böyükdür. Alimlərin araşdırmalarına görə, 5 yaşlı uşağın bədəninə ətrafdakı elektromaqnit dalğaları böyüklərdən 60 faiz çox hopur. Hətta şüalanma səbəbi ilə uşaqların sümük iliyi xəstəliyinə tutulması da böyüklərdən 10 dəfə çoxdur. Beynəlxalq Xərçəng Xəstəliyi Araşdırmaları Agentliyi də elan edib ki, mobil rabitə vasitələrində istifadə olunan radiotezliklər insan bədənində xərçəng xəstəliyini əmələ gətirən potensial vasitədir.






## Bu ölkədə hər qadının 7 əri var

**Bu ölkədə - Nepal və Tibset arasındakı Nyimba vadisində qadınlar sanki uşaq fabriki kimi çalışır. Ölkədə insanların, tarlada çalışacaq işçilərin sayını artırmaq üçün qadınlar haqqında çoxevlilik qərarı verilib. Belə evliliklərə "poliandry" adı verilir.**

Bir qadın və bir kişi arasındakı evlilik tarixdən bu günümüzə qədər davam edən standart proses olsa da bəzi cəmiyyətlərdə çoxevliliklər də ortaya çıxmağa başlayıb. Lakin beləsi görünməmişdi. Belə ki, Nyimba vadisində bir qadının 7 əri var. İşin maraqlı tərəfi isə odur ki, ərlərin heç biri digərini qısqanmır. Buradakı qadınlar uşaq fabriki kimi çalışırlar. Ona görə də hər il ərlərinin birindən uşaq dünyaya gətirirlər.




QOÇ - İxtiyarınızda kifayət qədər təzadlı bir tarix durur. Proseslərin inkişafı gah müsbət, gah da mənfi istiqamətə səmt ala bilər. Bu səbəbdən də yaxşı bələd olmadığınız şəxslərlə işbirliyi yaratmaqdan imtina edin.

BUĞA - Göy qübbəsi yuxusuzluğunuzdan, həmçinin iştahasızlığınızdan şikayətlənir. Bunun qarşısını almaq üçün bütün qüvvənizi səfərbər etməlisiniz. Bu gün əlinizə düşən pulları boş məsrəflərə xərcləməyin.

ƏKİZLƏR - Saat 14-16 aralığını nəzərə almasaq, bu gün tam mənasıyla ürəyinizcə olacaq. Amma gərək "bir əldə iki qarpız" tutmayasınız. Çalışmalısınız ki, reallığa uyğun hərəkət edəsiniz. Sürprizləriniz də çox olacaq.

XƏRÇƏNG - Gün ərzində boş dayanmağınıza lüzum yoxdur. Çünki sizin kimi romantik şəxslərə bu gün heç bir zərər dəyməyəcək, üstəlik, aktivləşdiyiniz indiki dövrdə şanslarınız da artacaq.

ŞİR - Bu gün bürcünüz üçün ciddi seçim ərəfəsi olacaq. Yolayrıcında qalmağınız yetər. Gələcəyinizi, taleyinizi düşünürsünüzsə, konkret addımlar atın. İnsanlarla umu-küsüləri bir kənara qoyun.

QIZ - Ulduzlar məsləhət görür ki, pul problemlərini qabartmayasınız. Çünki istəsəniz də, istəməsəniz də, bu təqvimi kasıbçılıqla başa vuracaqsınız. Bu səbəbdən əsas diqqətinizi münasibətlərə yönəldin.

TƏRƏZİ - Ötən günlərlə müqayisədə bu günün sizə əhəmiyyəti böyük olacaq. Belə ruh yüksəkliyinin yaranması bürcünüzün aktivləşməsi ilə əlaqədardır. Çoxsaylı işgüzar görüşlər, perspektivli əlaqələr mümkündür.

ƏQRƏB - Bu vaxta qədər baş verən cəhdlərinizin boşa çıxması, uğursuz sövdələşmələr, səhhətlə bağlı narahatçılıq və s. kimi mənfi fəsadlar elə səhər saatlarından aradan qalxmağa başlayacaq.

OXATAN - Bütün vacib planlarınızı saat 15-ə qədər həyata keçirməyə çalışın. Çünki günün yalnız bu hissəsi ümumi işlərinizdə aktivlik mərhələsi olacaq. Daşınmaz əmlak alış-verişindən uzaq olun.

OĞLAQ - Ulduzların düzümü saat 13-ə qədər ümumi işlərinizdə passivliyin hökm sürəcəyindən xəbər verir. Həmin müddətdə riskli işlərdən uzaq olmalı, yeni müqavilə və təkliflərdən boyun qaçırmalısınız.

SUTÖKƏN - Xırda mübahisələri nəzərə almasaq, bu gün sizin üçün normal keçəcək. Ədalətsiz insanları görəndə, haqsızlığın şahidi olanda üsyankarlıq göstərməyin. Öz ideyalarınızı beyinlərə təmkinlə yeridin.

BALIQLAR - Saat 12-yə qədər mübahisə və konfliktlərdən, eləcə də yeni işlərə başlamaqdan vaz keçməlisiniz. Sonrakı müddətdə isə qarşınıza qoyduğunuz ideyaların reallaşmasında heç bir çətinlik çəkməyəcəksiniz.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 37 illik yalanın hesabına zəngin oldu



**Amerikanın Texas ştatında yaşayan 53 yaşlı Doreen Mitçel əqli problemləri olduğundan dövlətdən yardım alıb. 1978-ci ildən başlayan bu yardım hesabına Doreen 500 min dollar əldə edib. 16 yaşından bu yana özünü şizofrenik kimi təqdim edən Mitçelin yalanının aydınlaşması üçün məhkəmə prosesi başlayıb. Nəticədə bəlli olub ki, onun heç bir əqli problemi yoxdur. Hazırda Mitçeldən dövlətdən aldığı 500 min dolların qaytarılması tələb olunur. O, iki oğlu ilə birlikdə həbs edilib.**

**Səhifəni hazırladı: ŞAHNAZ**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300